❒ № 165 (5446), 2021-ci il

# ŞƏRQ

Günəş Şərqdən doğur!

Qiyməti 40 qəpik

www.sherg.az 14 sentyabr 2021-ci il (çərşənbə axşamı)

## Xüsusi təyinatlılar müxtəlif silahlardan atəş açıb

“Üç qardaş - 2021” təlimi davam edir



**Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlı qüvvələrinin ”Üç qardaş - 2021” beynəlxalq təlimində atəş hazırlığı üzrə məşğələlər keçirilib.**

Müdafiə Nazirliyindən ”Şərq”ə verilən məlumata görə, təlimin planına əsasən xüsusi təyinatlı bölmələr atıcı silahlardan və qumbaraatandan praktiki atışların yerinə yetirilməsi tapşırıqlarını icra ediblər.

*Qeyd edək ki, ”Üç qardaş - 2021” beynəlxalq təlimi sentyabrın 20-dək davam edəcək.*

## Avropa İttifaqının xüsusi nümayəndəsi Azərbaycana gələcək




**Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toyvo Klaar Azərbaycana gələcək.**

Bu barədə Aİ-nin Azərbaycandakı nümayəndəliyindən bildiriblər.

Məlumata əsasən, səfər bu həftənin ortasına nəzərdə tutulub, dəqiq tarix hələlik açıqlanmayıb.

*Qeyd edək ki, T.Klaar hazırda Ermənistanda ikigünlük rəsmi səfərdədir.*



## Azərbaycanın Baş Qərargah rəisi Ankarada...

Türkiyə-Azərbaycan arasında hərbi əməkdaşlıq özünün ən yüksək dövrünü yaşayır

**Türkiyədə rəsmi səfərdə olan Azərbaycan müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi, general-leytenant Kərim Vəliyev Türkiyənin Milli müdafiə naziri Hulusi Akar və Baş Qərargah rəisi Yaşar Gülerlə görüşüb.**

Görüşlərdə hərbi, hərbi-texniki, hərbi-təhsil, mühəndis təminatı və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi məsələləri müzakirə edilib. Hər iki ölkənin orduları arasında dostluq və qardaşlıq münasibətləri üzərində qurulan əməkdaşlığın uğurla inkişaf etdiyi vurğulanıb.

(səh.2)

# Bayramlı getdi deyə bayram etməyin!

Sığorta Agentliyi də üzərinə qoyulan öhdəliklərin öhdəsindən tam gələ bilmir






*Razi Nurullayev: “Səhiyyə sahəsi çox dağınıq və xaotik olduğundan insanlarımız çox əziyyət, zülm çəkirlər”*

**”Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi” publik hüquqi şəxsin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı öz ərizəsi ilə tutduğu vəzifədən azad edilib. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyevin əmri ilə TƏBİB-in İdarə Heyətinin sədri vəzifələrini müvəqqəti icra etmək səlahiyyəti Vüqar Cavanşir oğlu Qurbanova verilib.**

O hazırda Agentliyin Tibbi iddialar departamentinin rəhbəri vəzifələrini icra edir. TƏBİB-də istefalar bununla yekunlaşmayıb. Qeyd edək ki, TƏBİB-in İdarə Heyəti sədrinin müşaviri Şəhriyar Fətullayev vəzifəsindən azad olunması ilə bağlı ərizə ilə müraciət edib. Bəs, bu istefalar və Ramin Bayramlının gedişi tibb sahəsində nələri dəyişəcək?

*(Davamı səh.4)*



## Prezidentin köməkçisi İran səfiri ilə görüşüb

“Gündəlikdəki ikitərəfli məsələlər üzrə səmərəli müzakirələr apardıq”

**Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyası xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İran İslam Respublikasının ölkəmizdəki səfiri Seyid Abbas Musəvi ilə görüşüb.**

Hikmət Hacıyev görüşlə bağlı tvitter səhifəsində paylaşım edib.

(səh.2)

## "5-6 aya "Yeni Azərbaycan" bir nömrəli qəzetə çevriləcək"

Alqış Həsənoğlu: “Hakim partiya olmağın yolu ictimai rəyə hakim olmaqdan keçir”



**Məlum olduğu kimi tanınmış jurnalist Alqış Musayev (Həsənoğlu) yenidən ”Yeni Azərbaycan” qəzetinin baş redaktoru təyin olunub.**

Bununla bağlı YAP İdarə Heyətinin ötən gün keçirilən iclasında qərar qəbul edilib. Bundan əvvəl “Yeni Azərbaycan” qəzetinin baş redaktoru millət vəkili Hikmət Babaoğlu idi.

O, YAP-ın yeni qərarı ilə Milli Məclisdə hakim partiyanı təmsil edən deputatların əlaqələndiricisi funksiyasını yerinə yetirəcək. Xatırladaq ki, Alqış Həsənoğlu əvvəllər də uzun müddət qəzetin baş redaktoru olub.

(səh.4)



## Yaqub Zurufçunun vəziyyətində dəyişiklik yoxdur

Sənətçinin durumu stabil ağır olaraq qalır

**Koronavirusa yoluxan Əməkdar artist Yaqub Zurufçunun son durumu açıqlanıb.**

Əməkdar artistin həyat yoldaşı Aynur Zurufçu ”Report”a bildirib ki, sənətçinin vəziyyəti stabil ağır olaraq qalır.

”Vəziyyətində heç bir dəyişiklik yoxdur. Həkimlər ötən gecə başının üstündə olublar, durumunu izləyiblər. Dünən ürəyində aritmiya olub. Bu gün normala düşüb və vəziyyəti stabil ağır olaraq qalır”, - o qeyd edib.

Qeyd edək ki, Əməkdar artist Yaqub Zurufçu bir neçə gün əvvəl koronavirusa yoluxub və ”Yeni Klinika”nın reanimasiya şöbəsinə yerləşdirilib. Müğənni süni nəfəs aparatına qoşulub. Həkimlər Y.Zurufçunun vəziyyətini ağır qiymətləndirirlər.

Yaqub Zurufçu 1956-cı ildə aprelin 8-də Təbriz şəhərinin Çərandab məhəlləsində anadan olub. O, ABŞ vətəndaşı olmaqla bərabər 15 iyul 2009-cu ildən Azərbaycan vətəndaşlığı da alıb. 17 sentyabr 2009-cu ildə ”Azərbaycan Respublikasının Əməkdar Artisti” adına layiq görülüb. Ailəlidir, 3 övladı var.

# Bu gücün alternativi yoxdur

Hər hansı təhdid olarsa bu dəfə üç yumruq birdən işə düşəcək

(səh.4)



## Ermənistan XİN başçısı fransalı həmsədrlə görüşüb

Danşıqlarda Qarabağın nizamlanması ilə bağlı fikir mübadiləsi aparılıb



**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan dünən ATƏT-in Minsk qrupunun fransalı həmsədri Stefan Viskonti ilə görüşüb.**

APA-nın ”Sputnik Armenia”ya istinadən verdiyi xəbərə görə, bu barədə Ermənistan Xarici İşlər Nazirliyinin (XİN) mətbuat xidməti məlumat yayıb.

Görüşdə Fransa XİN-in Kontinental Avropa Departamentinin direktor müavini Silven Qiyoqe də iştirak edib.

Görüşdə Qarabağın nizamlanması ilə bağlı fikir mübadiləsi aparılıb.

*Qeyd edək ki, Ermənistanın xarici işlər naziri sentyabrın 6-da ATƏT-in Minsk qrupunun rusiyalı yeni həmsədri İqor Xovayevlə görüşüb.*

## Yoluxanların sayı 1157-yə düşdü

Son sutkada 31 nəfər koronavirusdan dünyasını dəyişib

**Azərbaycanda dünən koronavirus infeksiyasına 1157 yeni yoluxma faktı qeydə alınıb, 3065 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Bu barədə “Şərq”ə Nazirlər Kabineti yanında Operativ Qərargah məlumat yayıb.

Son sutkada nəfər 31 nəfər COVID-19-dan dünyasını dəyişib.

# Azərbaycanın Baş Qərargah rəisi Ankarada...

## Türkiyə-Azərbaycan arasında hərbi əməkdaşlıq özünün ən yüksək dövrünü yaşayır



**Türkiyədə rəsmi səfərdə olan Azərbaycan müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi, general-leytenant Kərim Vəliyev Türkiyənin Milli müdafiə naziri Hulusi Akar və Baş Qərargah rəisi Yaşar Gülerlə görüşüb.**

Görüşlərdə hərbi, hərbi-texniki, hərbi-təhsil, mühəndis təminatı və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi məsələləri müzakirə edilib. Hər iki ölkənin orduları arasında dostluq və qardaşlıq münasibətləri üzərində qurulan əməkdaşlığın uğurla inkişaf etdiyi vurğulanıb.

Kərim Vəliyev sentyabrın 13-də Türkiyə Respublikasının Baş Qərargahının ikinci rəisi ordu generalı Selçuk Bayraktaroğlu və Xüsusi Təyinatlı Qüvvələr Komandanı diviziya generalı Ömer Ertuğrul Erbakan ilə də görüşüb.

Müdafiə Nazirliyindən verilən məlumata görə, görüşlərdə Azərbaycan və Türkiyə arasında əlaqələrin inkişafı, həmçinin hərbi və digər sahələrdə əməkdaşlığın uğurla davam etməsindən danışılıb.

Son zamanlar iki qardaş ölkənin birgə təlimlərinin əhəmiyyəti xüsusi vurğulanaraq bu kimi təlimlərin təcrübə mübadiləsi, dostluq və qardaşlığın daha da gücləndirilməsi baxımından müstəsna rol oynayacağı bildirilib və gələcəkdə də birgə təlimlərin keçirilməsinin vacibliyi qeyd edilib.

General-leytenant K.Vəliyev hazırda Bakıda keçirilən Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlı qüvvələrinin "Üç Qardaş - 2021" birgə beynəlxalq təlimini hərbi qulluqçuların peşəkarlığının artırılması baxımından vacib hesab etdiyini bildirib.

Müdafiə sahəsində əməkdaşlığın genişlənməsinin sadəcə ölkələrimiz üçün deyil, eləcə də bölgədə sülhün, sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə töhfə verəcəyindən əminlik ifadə edilib.

Sonra Türkiyə Respublikasının Xüsusi Təyinatlı Qüvvələr Komandanlığının ərazisi ilə tanışlıq keçirilib. Sonda qarşılıqlı plaketlər təqdim olunub.

Məlumat üçün bildirək ki, Azərbaycanla Türkiyə arasında "xüsusi təyinatlıların təliminə dair" Anlaşma Memorandumu imzalanıb. Memorandum 1 il müddətində etibarlı olacaq.

**Generalların mühüm görüşlərini və imzalanmış sənədləri "Şərq"ə təhlil edən Milli Cəbhə Partiyasının sədr müavini, politoloq Məhəmməd Əsədullazadə deyib ki, Türkiyə-Azərbaycan arasında hərbi əməkdaşlıq özünün ən yüksək dövrünü yaşayır. Analitik vurğulayıb ki, iki ölkə arasında müxtəlif hərbi əməkdaşlıq və qarşılıqlı müdafiə müqavilələri var:** "Şuşa Bəyannaməsi iki ölkə arasında hərbi müttəfiqlik sənədidir. Türkiyə ilə birgə müxtəlif qoşun növlərinin təlimləri mütəmadi keçirilir. Ankara və Bakı arasında Türkiyə və Azərbaycan ordularının xüsusi təyinatlıları ilə bağlı memorandumun imzalanması çox əhəmiyyətlidir. Bu o deməkdir ki, artıq regionda hərbi balans Türkiyə-Azərbaycan lehinə formalaşır. Memorandumdan sonra ölkəmizdə Türkiyənin anti-terror üzrə xüsusi təyinatlıları azad olunmuş ərazilərdə mütəmadi təlimlər keçirəcəklər. Həmçinin, Azərbaycanın Silahlı Qüvvələrinin zabitləri və kursantları Türkiyə hərbi məktəblərində oxuyacaqlar. Azərbaycan ordusu Türkiyə modelinə uyğunlaşdırılır. O baxımdan bu cür ikili müqavilələr labüddür".

**Səfərin əhəmiyyəti barədə fikirlərini "Şərq"lə bölüşən hərbi ekspert Ədalət Verdiyev isə vurğulayıb ki, vəzifəyə yeni təyin olunan general-leytenant Kərim Vəliyevin ilk rəsmi səfərini Türkiyəyə etməsi gözlənilən idi. Onun sözlərinə görə, bu səfər digər rəsmilərimizə də aiddir:** "Onlar da vəzifəyə təyin olunduqdan sonra ilk səfərlərini məhz qardaş ölkələrə edəcəklər. Sözügedən görüşdə müzakirə olunan mövzuların spektrları kifayət qədər genişdir. Türkiyə ilə hərbi, hərbi-texniki, hərbi-təhsil, həm də müdafiə sənayesi sahəsində birgə əməkdaşlıq etmək niyyətindəyik. Hesab edirəm ki, bu məsələlərlə bağlı kifayət qədər geniş müzakirələr aparılacaq, müxtəlif dövlət rəsmiləri ilə bir çox sazişin imzalanması da mümkündür".

Ə.Verdiyev qeyd edib ki, Azərbaycanın müharibə zamanı israf etdiyi silah-sursat ehtiyatlarımızın yenidən bərpası üçünTürkiyə ilə əməkdaşlığa daha çox üstünlük verəcəyi bəllidir: "Bundan başqa, əvvəllər Türkiyənin aparıcı müdafiə sənayesi şirkətlərinin rəhbərləri cənab Prezidentin qəbulunda oldular. Onlardan bəziləri Qarabağ ordeni ilə təltif edildi. Görünür, artıq həmin şirkətlərlə Azərbaycanın daha yaxından əməkdaşlıq etməsi, bəlkə də, Qarabağda birgə silah istehsal sahələrinin yaradılması səfərin müzakirə mövzularından biri ola bilər".

**İsmayıl, Yeganə**

# Ağstafa və Qazaxda 16 ədəd subartezian quyusu qazılacaq



**Prezident İlham Əliyev Ağstafa və Qazax rayonlarında əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında Sərəncam verib.**

*Sərəncamda deyilir:*

1. Ağstafa və Qazax rayonlarının əhalisi 49420 nəfər olan 14 yaşayış məntəqəsində *(siyahı əlavə olunur)* əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 16 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.8.8-ci yarımbəndində göstərilmiş məbləğin 1,12 milyon (bir milyon bir yüz iyirmi min) manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

# Prezidentin köməkçisi İran səfiri ilə görüşüb

## "Gündəlikdəki ikitərəfli məsələlər üzrə səmərəli müzakirələr apardıq"



**Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyası xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İran İslam Respublikasının ölkəmizdəki səfiri Seyid Abbas Musəvi ilə görüşüb.**

Hikmət Hacıyev görüşlə bağlı tvitter səhifəsində paylaşım edib.

"Bizi ziyarət etdiyiniz üçün sizə təşəkkür edirəm. Həqiqətən də gündəlikdəki ikitərəfli məsələlər üzrə səmərəli müzakirələr apardıq və gələcək perspektivləri nəzərdən keçirdik", deyə Prezidentin köməkçisi vurğulayıb.

*Qeyd edək ki, İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvi də görüşlə bağlı tvitter səhifəsində paylaşım edib: "Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyevlə görüşməkdən məmnunam. İkitərəfli əlaqələrimizin son inkişaflarını və ümumi maraq doğuran məsələləri müzakirə etdik".*

# TURKOVAC-ın sınaqları Azərbaycanda da aparıla bilər

## Bu barədə ictimaiyyətə ətraflı məlumat açıqlanacaq




**Türkiyənin koronavirusa qarşı ilk yerli peyvəndi olan TURKOVAC-ın sınaqları Azərbaycanda da aparıla bilər.**

Trend-in sorğusuna cavab olaraq TƏBİB-dən bildirilib ki, hazırda TURKOVAC vaksininin sınaqlarının keçirilməsi ilə bağlı Səhiyyə Nazirliyi və TƏBİB-in Elmi Şurası yanında müzakirələr aparılır. Bu barədə ictimaiyyətə ətraflı məlumat açıqlanacaq.

*Qeyd edək ki, Türkiyənin səhiyyə naziri Fəxrəddin Qoca TURKOVAC-ın təcili istifadə üçün müraciət mərhələsinə çatdığını və müsbət cavab gələcəyi təqdirdə, oktyabrdan kütləvi istehsalına başlanılacağını qeyd edib.. Türkiyə prezidentinin köməkçisi Fuat Oktay isə ötən gün bildirib ki, peyvəndin kliniki sınaqlarının üçüncü mərhələsi ilə əlaqədar Pakistan, Azərbaycan, Argentina, Kolumbiya və Polşa daxil olmaqla bir çox ölkə ilə danışıqlar davam edir.*



# Əfqanıstanda vətəndaşların əksəriyyəti cahildir

## Ona görə bu ölkədə qanlı hadisələr uzun müddət davam edəcək

**Əfqanıstanın Bağlan əyalətində "Taliban" hərəkatının üzvləri ilə milli müqavimət cəbhəsinin silahlıları arasında döyüşlər yenidən başlayıb.**

Bu barədə TASS-a müqavimətçilərə yaxın mənbə bildirib. "Bu səhər Bağlanda, Puli-Xisar regionunda taliblər və müqavimətçi silahlılar arasında döyüşlər yenidən başlayıb.

"Taliban" silahlıları itki verərək, geri çəkilməyə məcbur ediliblər", - mənbə agentliyə bildirib.

**Hərbi-siyasi ekspert Həşim Səhrablı Əfqanıstandakı vəziyyəti "Şərq"ə qiymətləndirərkən bildirib ki, situasiya mürəkkəbləşməyə doğru gedir:** "Taliban"a qarşı müqavimət yeni deyil. Bu, 90-cı illərdə də olmuşdu. Hətta 2001-ci ildə "Taliban"ın devrilməsində məhz müqavimət hərəkatı mühüm rol oynamışdı. Müqavimətçilər də, sözügedən radikal qruplaşma da kifayət qədər güclüdür. Və bu, artıq beynəlxalq məsələyə çevrilib. Çünki tərəfləri müxtəlif dövlətlər dəstəkləyir. İkinci bir tərəfdən, münaqişənin kökü bu gündə deyil. Əks halda çoxdan razılıq əldə edilmişdi. Məsələ ondan ibarətdir ki, müqavimətçilərin lideri Əhməd Məsudun atası da vaxtı ilə "Taliban"a qarşı dirəniş göstərib. Yəni bu həm də mənəvi məsələdir".

*H.Səhrablının fikrincə, məsələ asanlıqla həllini tapmayacaq:* "Dediyim kimi, hər iki tərəf güclüdür. Qərb hazırda Əfqanıstanda o qədər də fəal deyil. Çünki uzun illər çalışsa da, istədiyinə nail olmadı. İndi proseslərə yalnız kənardan müdaxilə edir. Əlbəttə, ölkənin bu duruma düşməsində beynəlxalq güclərin, o cümlədən Qərbin mühüm rolu var. Rusiya, Çin, ABŞ Əfqanıstanda müəyyən təsir imkanlarına sahibdir. Sosial baza isə problemi həll etməkdən ötrü lazımi səviyyədə deyil. İnsanlar hələ nəyin baş verdiyini anlamırlar. Vətəndaşların çoxu cahildir, biliklilərin sözlərinə isə əhəmiyyət verilmir. Daxildə birlik yoxdur. Bu mənada Əfqanıstandakı proseslərin hələ uzun əlli illiklər davam edəcəyi də istisna deyil".

**Kənan**

# Zəfər Günü əfv olacaqmı?

## Rəşad Məcid deyib ki, bu, Prezidentin müstəsna səlahiyyətinə daxildir



**Bu il noyabrın 8-də Azərbaycanda ilk dəfə Zəfər Günü qeyd ediləcək. Vətən müharibəsində qazandığımız tarixi qələbənin ildönümünə iki aydan az vaxt qalıb. Qarabağ Zəfəri ilə bağlı möhtəşəm tədbirlərin təşkil olunacağı bildirilir.**

Zəfər Günü münasibətilə gözlənilən humanist addımlardan biri də əfv sərəncamıdır. 8 noyabr ərəfəsində əfv sərəncamının verilməsi ilə bağlı təkliflər səsləndirilir.

**Məsələ ilə bağlı "Şərq"ə açıqlama verən Əfv Məsələləri üzrə Komissiyanın üzvü, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid əfvlə bağlı sərəncam imzalanmasının Prezidentin müstəsna səlahiyyəti olduğunu xatırladıb:** "Son illərin təcrübəsi göstərir ki, Əfv Komissiyası il ərzində toplanan müraciətlərə yanvar ayından başlayaraq baxır və adətən Novruz bayramı ərəfəsi əfv olur. Ola bilsin ki, tələb və ictimai fikir olarsa, cənab Prezident Zəfər Günü ilə bağlı da əfv sərəncamı imzalaya bilər".

**Yeganə**

# Dünyanın ən dəqiq aviaşirkətləri açıqlanıb

## Siyahının lideri Rusiyanın "Aeroflot" aviaşirkəti olub



**"Cirium" nüfuzlu konsaltinq agentliyi dünyanın ən dəqiq uzun məsafəli uçuşlar yerinə yetirən aviaşirkətlərini açıqlayıb.**

"APA-Economics"in "Exo Moskvı" radiostansiyasına istinadən verdiyi məlumata görə, siyahının lideri Rusiyanın "Aeroflot" aviaşirkəti olub. Bu şirkət demək olar ki, cədvəl üzrə uçuşlarının 95%-ni yerinə yetirib, reyslərin 92%-i vaxtında həyata keçirilib (fərq təyyarənin bəzən aviaşirkətin günahı olmadan, məsələn, güclü külək səbəbindən gecikməsi ilə izah olunur. qəbul edən hava limanında sıxlıq). Agentliyin metodologiyasına görə, 15 dəqiqədən çox gecikmə artıq yubanma sayılır.

Siyahının ilk beşliyinə Argentinanın "LATAM Airlines", ABŞ-ın "American Delta", Fransanın "Air France" və Almaniyanın "Lufthansa" aviaşirkətləri daxil olub.

# Qarabağda anti-terror əməliyyatı gündəmə gəlir

## Əhəd Məmmədli:

*"Əgər razılıq növbəti dəfə də pozularsa, biz 10 noyabr sənədindən imtina etməliyik"*



**Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Azərbaycan ərazisində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlı qüvvələrinin komandanı vəzifəsini başa vuran general-leytenant Rüstəm Muradovla görüşüb.**

Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb. Bildirilib ki, sonra general-leytenant R.Muradov Rusiya sülhməramlı kontingentinin komandanı vəzifəsinə yeni təyin olunan general-mayor Mixail Kosobokovu müdafiə nazirinə təqdim edib. Görüşdə Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisindəki son vəziyyət müzakirə edilib.

***"Şərq" olaraq sülhməramlıların yeni komandanından gözləntilər barədə AĞ Partiya sədrinin müavini, politoloq Əhəd Məmmədlinin fikirlərini öyrəndik:***

**- Dəyişiklik hansısa müsbət nəticəyə səbəb ola bilər?**

- İnanmıram. Komandanın kimin olmasının fərqi yoxdur. Hər biri Rusiya dövlətinə xidmət edir. Kosobokovun İrəvanda Ermənistan müdafiə naziri ilə görüşü, Laçında baş verənlər yaxşı əlamət deyil. Və düzü, vəziyyət yaxşıya doğru inkişaf etmir.

**- Nə etməliyik?**

- Rusiya və Ermənistan Azərbaycanın üçtərəfli razılıqdan çıxması üçün hər şeyi edirlər. Əgər razılıq növbəti dəfə də pozularsa, biz 10 noyabr sənədindən imtina etməliyik. Ardınca isə keçmiş Dağlıq Qarabağda, rus sülhməramlıların olduğu ərazidə anti-terror əməliyyatı keçirməliyik. Bu barədə Kreml əvvəlcədən xəbərdar edilməlidir. Əgər bizim Türkiyə və Pakistanla birlikdə anti-terror əməliyyatı keçirə biləcəyimizə inansalar, ritorikalarını dəyişəcək, eyni ilə müharibədəki kimi davranacaqlar.

**- İddialara görə, sülhməramlıların Qarabağda beş ildən daha çox qalmaq fikirləri var. Bu, nə qədər mümkündür?**

- Həmin açıqlama özü də təxribatdır. Moskva artıq ictimai şüur yaradır, hazırlıq aparır.

**- Məqsəd nədir?**

- Hazırda informasiya savaşı davam edir. Şimal qonşumuz bilir ki, diplomatik meydanda uduzsaq, qələbəmiz minimuma enəcək. İstədiyi də budur. Biz isə adekvat cavab verməli və hər an anti-terror əməliyyatı keçirə biləcəyimizi göstərməliyik.

**Kənan Novruzov**

# Kreml qapıları taybatay açır

## Xankəndi tam nəzarətsiz bölgə halına gəlib




İran günün günorta çağı sülhməramlıların gözləri qarşısında ermənilərə qaçaqmalçı yüklər daşıyır

İsmayıl Qocayev

**İrana məxsus yük maşınları Azərbaycan hökumətinin icazəsi olmadan erməni separatçılarının yerləşdiyi ərazimizə getməyə davam edir. Bu ilin avqustunda Azərbaycan tərəfi İrana məxsus yük maşınlarının rəsmi Bakının icazəsi olmadan Rusiya sülhməramlılarının müvəqqəti məsuliyyət zonasına qanunsuz keçməsi barədə məlumat əldə etmişdi. 11 iyul - 8 avqust tarixlərində İrana məxsus 35 maşın 70 dəfə laçın dəhlizinə daxil olub və çıxıb.**

Bundan sonra 11 avqustda İranın ölkəmizdəki səfiri Seyid Abbas Musəvi Azərbaycan Xarici İşlər Nazirliyinə çağırılaraq nota verildi və İran tərəfinin Azərbaycanla bağlı atdığı qanunsuz addımlardan ciddi narahatlıq ifadə olundu. Amma Bakının etirazına baxmayaraq, bir ay sonra İran yük maşınlarının Qarabağ bölgəsinə qanunsuz daxil olduğunu göstərən eksklüziv videogörüntülər yayıldı. Məlum oldu ki, 11 avqustdan 10 sentyabradək xüsusən yanacaq və sürtkü yağları ilə dolu 58 yük maşını müxtəlif məqsədlər üçün Xankəndiyə daxil olub. Daha sonra isə onlardan 55-i geri qayıdıb. İranlılar və ermənilər müxtəlif hiylələrə də əl atırlar. Misal üçün, Rusiya sülhməramlılarının müvəqqəti məsuliyyət zonasına yaxınlaşanda, Xankəndinə gedən İran yük maşınlarının dəqiq sayını gizlətmək üçün onlara erməni qeydiyyat nömrələri vurulur. Ancaq nömrələrin təkrarlanması və yük maşınlarına dəfələrlə vurulması diqqətdən qaçmayıb. Diqqət çəkən məqamlardan biri də İran tırlarından bir neçəsinin üzərində "Təbriz" yazının yer alması olub. Yük maşınlarının Xankəndiyə nə daşıdığı və nə üçün bu qanunsuzluğun edildiyi bəlli olmasa da, Azərbaycan Müdafiə Nazirliyi Rusiya sülhməramlı komandanlığına İran maşınlarının Qarabağa buraxılmaması üçün müraciət edib. Buna cavab olaraq Azərbaycan polisi Gorus-Qafan yolunun Azərbaycandan keçən hissəsində qurulan postunda İrana məxsus yük maşınlarının yoxlanılmasına başlayıb.

**Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli "Şərq"ə deyib ki, cənub və şimal qonşularımızın zaman-zaman ölkəmizə qarşı xoşagəlməz davranışlarının şahidi olmuşuq.** Partiya təmsilçisinə görə, bu mənada, Rusiya sülhməramlılarının və İranın Qarabağda qanunsuz əməllərini ortaya qoyan məlum qalmaqallı görüntülərin yayılmasına təəccüblənməyə dəyməz: "Cənubda molla rejimi, şimalda rus şovinizmi hər zaman Azərbaycana düşmən mövqedə olublar. Hələlik İran tərəfi, o cümlədən Rusiya sülhməramlıları bu qalmaqallı olaya heç bir reaksiya verməyib. Hər ikisi susur. Susmaları da anlaşılandır. Çünki bu görüntülərin ortaya çıxması ilə necə deyərlər, tərəflərin ikisi də suç üstündə yaxalanıb. Ancaq onların susqunluğu sonsuza qədər

*"Azərbaycanın İrana qarşı təsir rıçaqları var. Xüsusən, soydaşlarımız ciddi faktordur. Bu təsirlər işə salınmalıdır ki, fars rejimi daha çox həyasızlıq etməkdən çəkinsin"*

davam edə bilməz. Ən yaxın qonşu saydıqlarımız bu görüntülərə nəsə bir aydınlıq gətirməlidirlər. Bu görüntülər haqlı olaraq cəmiyyətimiz tərəfindən təpki ilə qarşılanmaqdadır. Eyni zamanda bu görüntülərdən ortaya bir sıra suallar da çıxır ki, istər İran tərəfi, istərsə də Rusiya tərəfi bu sualları mütləq cavablandırmalıdır".

**S.Əsədliyə görə, İran günün günorta çağı və Rusiya sülhməramlılarının gözləri qarşısında Azərbaycanın bəlli bir ərazisinə "humanitar yardım" adıyla qaçaqmalçı yüklər daşıyır:** "İrana bu səlahiyyəti kim verib? Bəllidir ki, rəsmi Bakı İrana belə bir səlahiyyət verməyib. İranla Azərbaycan arasında bu barədə hər hansı bir anlaşma imzalanmayıb. Bəs o zaman İran tərəfi hansı hüquqi bazaya əsaslanaraq, Azərbaycan dövlətinin başı üzərindən bu cür özbaşınalıqlara yol verir? Sülhməramlıların bu işdə marağı nədir? İran və Rusiyanın Xankəndi üzərindən şübhəli işbirliyi qurması geosiyasi maraqlardan irəli gəlir, yoxsa söhbət narkotrafik təşkil etməklə külli miqdarda "çirkli pullar" əldə etməkdən gedir? Göründüyü kimi ortada bir yığın suallar və mübahisəli məqamlar var. Ancaq bütün hallarda görünən budur ki, faktiki olaraq İran da, Rusiya da beynəlxalq hüquq normalarını və sülhməramlılıq prinsiplərini pozaraq separatçıları ayaqda saxlamaq üçün birgə səylərini davam etdirirlər. Bu, separatizmə açıq-aşkar dəstək verilməsinin təsdiqidir".

Siyasi şərhçi bəyan edib ki, İran və Rusiya koordinasiyalı şəkildə Dağlıq Qarabağda erməni separatizmini yaşatmağa və canlandırmağa qərar veriblər: "Onların Azərbaycanın razılığını almadan "Laçın dəhlizi"ndən Xankəndinə "yardım" daşınmasını təmin etmələri ölkəmizin suverenliyinə qarşı saygısızlıqdır. İran bu hərəkəti ilə 44 günlük müharibədən əvvəl olduğu kimi indi də Azərbaycanın ərazi bütövlüyünü pozmağa davam edir. Bizim üçün Rusiya tərəfinin də bu məsələyə necə münasibət bildirəcəyi çox maraqlıdır. Çünki bu son qalmaqallı görüntülər Rusiya sülhməramlı heyətinin İranın yük maşınlarını tamamilə qeyri-qanuni olaraq Azərbaycan ərazisinə buraxmaqla 10 noyabr Bəyanatının müddəalarını açıq-aşkar pozduğunu təsdiqləyir. Rusiya sülhməramlı kontingentinin İranın erməni separatçılarına dəstək verməsinə göz yumması bağışlanmaz və qəbuledilməzdir".

**AMİP Siyasi Şurasının üzvü Əli Orucov da "Şərq"ə deyib ki, həqiqətən də Xankəndinə gedən yolun Azərbaycanın nəzarətindən kənarda saxlanılması acınacaqlıdır:** "Azərbaycan öz suveren hüquqlarını və ərazi bütövlüyünü qorumağa məcburdur. Nə Rusiya, nə də İran Azərbaycanın suveren hüquqlarına hörmət qoyur. Baxmayaraq ki, Rusiya 10 noyabr bəyanatını imzalayan qarantör ölkədir, təəssüf ki, ilk günlərdən rəsmi Moskva atdığı imzaya əməl etmir. Xankəndi tam nəzarətsiz bölgə halına salınıb. İrandan qanunsuz yükdaşımaların qarşısını Rusiya almayacaq, bunu gözləmək sadəlövhlükdü. Azərbaycan öz başının çarəsinə özü baxmalıdır. İrana qarşı daha sərt mövqe ortaya qoymalıyıq. Səfirimiz məsləhətləşmələr üçün Bakıya çağrılmalıdır. Bütün diplomatik etiraz formalarından istifadə edilməlidir. Azərbaycanın İrana qarşı təsir rıçaqları var. Xüsusən, soydaşlarımız ciddi faktordur. Bu təsirlər işə salınmalıdır ki, fars rejimi daha çox həyasızlıq etməkdən çəkinsin. İranın hərəkətləri beynəlxalq hüquq normalarına da ziddir. Artıq diplomatik skandal üçün kifayət qədər əsas var. İran terroru dəstəkləyən dövlətdir".



# Köçəryana yeni tapşırıqlar verilib

## Rusiya Ermənistandakı gərginliyi artıracaq və Paşinyanı daha rahat idarə edəcək

**Separatçı deputat Metakse Akopyan Nikol Paşinyanın həyat yoldaşı Anna Akopyanla bağlı sensasion iddia irəli sürüb.**

O, Xankəndidə II Qarabağ müharibəsi öncəsi Anna Akopyanın "parlament deputatları" önündə çıxış edərək, Rusiyanın Ermənistanın düşməni olduğunu dediyini bildirib.

Deputatın sözlərinə görə, Akopyan "parlament" qarşısında "Özündən bir əsr boyunca müttəfiq obrazı yaradan dövlət (Rusiya) əslində bizim müttəfiqimiz deyil. Bu situasiyaya biz onların ucbatından düşmüşük və onlar hətta müttəfiqdən çox, düşmənlərimizdir. Biz Qərbə doğru hərəkət etməliyik" söyləyib.

Metakse Akopyan Anna Akopyanın oxşar siyasəti müharibə dövründə də davam etdirdiyini deyib.

Maraqlıdır, rəsmi İrəvan kimə, nəyə arxalanaraq bu qədər cəsarətli bəyanat səsləndirib? Ermənistan iqtidarı, həqiqətən, yolun sonunu görmür? Paşinyan isə görünür, xanımının arxasında gizlənməyi seçib və mövqeyini onun dili ilə bildirib.

***"Şərq" olaraq Akopyanın sözügedən bəyanatının arxasında nələrin dayandığını politoloq Natiq Miri ilə müzakirə etdik.***

**- Sizcə, düşmən tərəf bununla nə demək istəyib?**

- Əslində Ermənistan müxalifəti məsələni başqa istiqamətə çəkmək və bundan iqtidar əleyhinə istifadə etmək istəyir. Akopyan bunu indi yox, xeyli əvvəl Qarabağda olarkən deyib. Əlbəttə, Moskvanın İrəvana münasibəti təkcə bu açıqlama ilə məhdudlaşmır. Kreml Paşinyan hakimiyyətə gəldiyi ilk gündən ona etibar edə bilmir, özününkü saymır. Əks halda Rusiyanın hakim partiyası Robert Köçəryanı məsləhətləşmələr üçün Moskvaya dəvət etməzdi.

**- Yeri gəlmişkən, Ermənistan müxalifət lideri ilə məsləhətləşmələrin məqsədi nədir?**

- Rusiya Ermənistanı ciddi təzyiq altında saxlamaq niyyətindədir. Elə vəziyyət yaratmaq istəyir ki, İrəvan müstəqil addım ata bilməsin. Amma dediyim kimi, Moskva Paşinyana dünən də güvənmirdi, bu gün də güvənmir. Akopyanın dedikləri isə şimal qonşumuz üçün bir şey ifadə etmir. Rusiya Paşinyanın ilk fürsətdə onun orbitindən çıxıb qərblə yaxınlaşacağını bilir. Və baş nazir tam neytrallaşanadək belə bəyanatlara əhəmiyyət verilməyəcək.

**- Ola bilərmi, rəsmi Moskva Köçəryanı Paşinyanın yerinə hazırlayır?**

- Belə deməzdim. Bu səfər Rusiyanın Qarabağla bağlı yeni strategiyası ilə bağlıdır. Çox güman ki, Köçəryana nə etməsinə dair konkret istiqamətlər göstəriləcək. Beləliklə, Rusiya Ermənistandakı gərginliyi artıracaq və Paşinyanı daha rahat idarə edəcək.

**- Bəs Rusiya "öz təndirinə düşsə"?..**

- Qarabağda Azərbaycan-Türkiyə-Rusiya üçbucağında gərginlik var. Hətta rus sülhməramlıları ilə Azərbaycan hərbçiləri arasında toqquşmanın qaçılmaz olduğu barədə fikirlər səslənir. Hərçənd, mən buna inanmıram. Moskva belə axmaq deyil ki, Türkiyə və Pakistanın Azərbaycanın yanında olduğunu görüb bizim torpaqlarımızda bizimlə qarşıdurmaya getsin. Bu, Kreml üçün ciddi məğlubiyyət deməkdir. Sülhməramlı kontingentə yeni komandanın təyin olunması əslində Azərbaycana mesaj idi. Amma biz buna adekvat cavab verdik. Laçında və Bakıda keçirilən təlimlər Rusiyaya ismarıc idi. Yəni Moskva prosesləri gərginləşdirməyə davam etsə, qarşısında Bakı-Ankara- İslamabad birliyini görəcək. Bu, nə Rusiyaya, nə də Ermənistana sərf edir. Moskva ordusuz İrəvanla nəyəsə nail ola bilməz. Belə bir ehtimal absurddur.

**Kənan Novruzov**



# Xalq Paşinyanı dəstəkləyir

## Tural Abbaslı: "Kremlin baş naziri Köçəryanla əvəz etməyə gücü çatmaz"

**Rusiyanın hakim Vahid Rusiya Partiyası Ermənistanın keçmiş prezidenti, müxalif "Ermənistan" Alyansının rəhbəri Robert Köçəryanı Moskvaya dəvət edib.**

Məlumatı "Tert" qəzeti yayıb. Rusiyanın hakim partiyası R.Köçəryanı siyasi məsləhətləşmələr üçün Moskvaya çağırıb. Qəzetin məlumatına görə, səfər çərçivəsində, o, partiya liderləri ilə görüşəcək. Tərəflər regiondakı vəziyyəti müzakirə edəcəklər.

**Səfər barədə "Şərq"ə danışan AĞ Partiya sədri Tural Abbaslı bunun gözlənilən olduğunu vurğulayıb:** "Təəccüblü bir şey yoxdur. Köçəryanın Rusiyanın adamı olduğu məlumdur. Moskva həm Ermənistandakı iqtidarla, həm də müxalifətlə işləmək, o cümlədən Köçəryanın hələ də onun təsiri altında olduğunu göstərmək niyyətindədir. Lakin bu, heç bir halda Azərbaycanla münasibətlərə təsir etməyəcək. Çünki Qarabağ məsələsində İrəvan "oyunçu" deyil".

**T.Abbaslı səfərin eyni zamanda Paşinyana mesaj olduğunu düşünür:** "Düzdür, Kremlin Paşinyanı Köçəryanla əvəz etməyə gücü çatmaz. Bunu edəcəyini bilsə, indiyədək edərdi. Nəzərə almaq lazımdır ki, xalq hazırkı iqtidarı dəstəkləyir. Və ictimai etimad baxımından, Paşinyanın alternativi yoxdur. Fəqət, Rusiya Paşinyana "qırmızı xətti" keçməmək barədə xəbərdarlıq edir".

**Kənan**

# Saakaşvilinin zabit və hərbçilərə müraciəti səbəbsiz deyil

## *O, bütün məsələləri nəzərə alıb və xalqın onu müdafiə edəcəyinə müəyyən mənada əminliyi var*

Aynurə Pənahqızı

**Gürcüstanın keçmiş prezidenti Mixeil Saakaşvili bu ölkənin Müdafiə Qüvvələrinin zabit və hərbçilərinə müraciət edib. O, hərbi qulluqçuları qarşıdan gələn yerli seçkilərdə fəal iştiraka çağırıb. M.Saakaşvili videomüraciətində deyib ki, Gürcüstana bu gün kömək lazımdır:**

"Mən sizə ilk növbədə Gürcüstan vətəndaşları kimi müraciət edirəm. Biz hamımız vətəndaş borcumuzu yerinə yetirməyə hazır olmalıyıq. Sizin və qəhrəman veteranların vətənpərvərliyinə ümid edirəm. Hər şey yaxşı olacaq". Qeyd edək ki, sabiq dövlət başçısı bundan öncə oktyabrın 2-də keçiriləcək seçkilər üçün Gürcüstana gedəcəyini elan edib.

**Gürcüstan siyasi müstəvisində parlaq bir siyasi liderin mövcud olmadığını deyən politoloq Natiq Miri "Şərq"ə açıqlamasında deyib ki, bu əslində Gürcüstan siyasətinin ən ciddi problemlərindən biridir. Politoloq qeyd edib ki, bu gün Gürcüstanın inkişaf etməsi, o cümlədən daha çox Qərbə inteqrasiya etməsi üçün tamamilə yeni bir liderə ehtiyacı var:** "Bu potensial isə Saakaşvilidə və onun liderliyində, xarakterində var. Əgər Saakaşvili yenidən hakimiyyətə gələrsə və gürcü xalqını arxasıyca apara bilərsə, düşünürəm ki, o zaman Qərb onu müdafiə etmək məcburiyyətində qalacaq. Çünki bildiyiniz kimi,o, birmənalı qərbyönümlü siyasətçidir. Və hər zaman Gürcüstanın qərbə inteqrasiyasının birmənalı olaraq tərəfdarı kimi çıxış edib. Ancaq Rusiyada onu sevmirlər, xüsusilə də Putinin ona patoloji nifrəti və allergiyası var".

**Politoloq əlavə edib ki, bu məsələ açığı, Qərbdə Saakaşvili fenomeninə çəkindirici bir məqam yaradır:** "Əgər həqiqətən də, Saakaşvili sözünün üstündə durub oktyabr ayında Gürcüstana qayıdarsa və həbs olunarsa, və bu proses doğru-dürüst idarə olunarsa, düşünürəm ki, gürcü xalqı Saakaşvilini İvanişvili təhlükəsindən müdafiə etməyə qalxacaq. Çünki gürcü toplumunda İvanişvili hakimiyyətinə qarşı bir təpki mövcuddur. Son hadisələr göstərdi ki, Gürcüstan siyasi sistemində artıq ciddi bir qarşıdurma, boşluq var. Bu gün müxalifətlə gürcü iqtidarı arasında Avropa Birliyi strukturları rəhbərlərinin bilavasitəçiliyinə rəğmən hələ də böyük anlaşmazlıq və məsafə mövcuddur. Bu məsafə isə getdikcə artır. Yəni müxalifət artıq birmənalı olaraq Gürcüstan parlamentini zaman-zaman boykot edir. Bu da Gürcüstan idarəetməsində böyük bir siyasi böhran yaradır. Təbii ki, Saakaşvili də bunu görməmiş deyil. Ən nəhayət, Gürcüstan pandemiya dövründə sözün əsl mənasında bir çox məsələlərdə boşluq yaratdı ki, bu gün də bunun əziyyətini gürcü xalqı çəkir. Bu gün Gürcüstanda ölüm və yoluxma faktları çox yüksəkdir. Bu gün orada risk dərəcəsi çox olduğu üçün bütün dünyaya, eyni zamanda Qərb dünyasına sərhədləri bağlıdır. Pandemiyada Gürcüstanda İvanişvili hakimiyyətinə bacarıqsızlığı ilə bağlı böyük etimadsızlıq yaradıb. Saakaşvilinin məhz belə bir vəziyyətdə Gürcüstana həbs təhlükəsi fonunda gəlmək istəyi düşünürəm ki, boşuna deyil. Mixeil Saakaşvili bu ölkənin Müdafiə Qüvvələrinin zabit və hərbçilərinə müraciət etməsi də təbii ki, boşuna deyil. Görünür, o, bütün məsələləri nəzərə alıb və xalqın onu müdafiə edəcəyinə müəyyən mənada əminliyi var".





# Bu gücün alternativi yoxdur

## Hər hansı təhdid olarsa bu dəfə üç yumruq birdən işə düşəcək

İsmayıl Qocayev

**Xəbər verdiyimiz kimi sentyabrın 12-də Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlı qüvvələrinin nümayəndələrinin iştirakı ilə Bakıda "Üç qardaş-2021" beynəlxalq təlimin açılış mərasimi keçirilib. Təntənəli mərasimdə əvvəlcə Vətən Müharibəsi Qəhrəmanı, general-mayor Zaur Cavanşir Xüsusi Təyinatlı Qüvvələr komandanı, Vətən Müharibəsi Qəhrəmanı, general-leytenant Hikmət Mirzəyevə məruzə edib. Azərbaycan, Türkiyə və Pakistanın şəhidlərinin xatirəsini yad etmək ucun bir dəqiqəlik sükut elan olunub.**

Daha sonra iştirakçı ölkələrin Dövlət himnlərinin müşayiəti ilə həmin respublikaların Dövlət bayraqları qaldırılıb. Xüsusi Təyinatlı Qüvvələr komandanı, general-leytenant Hikmət Mirzəyev çıxış edərək Türkiyə və Pakistan xüsusi təyinatlılarının nümayəndələrini Azərbaycanda görməkdən çox məmnun olduğunu bildirərək deyib: "Azərbaycan, Türkiyə və Pakistan bəşəriyyət tarixinə bir-birinə yaxın dost və qardaş ölkələr kimi düşüblər. Bu ələqələrin mərkəzində dayanan isə xalqlarımızın bir-birinə sıx şəkildə bağlı olmalarıdır. Buna əyani sübut kimi Azərbaycanın 2020-ci il sentyabrın 27-də təcavüzkar Ermənistanın silahlı qüvvələrinə qarşı başladığı 44 günlük əks-hücum əməliyyatının ilk günündən Türkiyə və Pakistanın Azərbaycana həmrəylik və dəstək nümayiş etdirməsini göstərmək olar. Bu gün ölkələrimiz arasında bütün sahələr üzrə əməkdaşlıq ən yüksək səviyyədədir. Regionun və xalqlarımızın təhlükəsizliyinin təmin edilməsi üçün əlaqələrimizin daha da gücləndirilməsi və inkişaf etdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir". H.Mirzəyev "Üç qardaş-2021" beynəlxalq təlimlərinin hər üç ölkənin hərbi qulluqçuları arasında geniş təcrübə və fikir mübadiləsi aparılacağına və onların peşəkar hazırlıq səviyyəsinin daha da artırılmasına böyük töhfə verəcəyinə əminliyini bildirib. Türkiyə və Pakistan nümayəndə heyətlərinin rəhbərləri polkovnik-leytenant Kürşad Konuk və polkovnik-leytenant Aamir Şahzad da çıxış edərək qeyd ediblər ki, xalqlarımız və ordularımız arasında bu dostluq bağı sürətlə dəyişən qlobal mühitdə zamanın sınaqlarından uğurla çıxacaq. Beynəlxalq siyasi dəyişikliklərin güclü küləkləri bütün dünyanı bürüsə də, bu üç qardaş etibarlı regional tərəfdaş və əməkdaş olaraq daha da yaxınlaşacaq.

Vurğulanıb ki, "Üç qardaş-2021" beynəlxalq təlimi ordular arasında mövcud olan ikitərəfli əlaqələrin daha da gücləndirilməsinə xidmət edəcək. Eyni zamanda, terrorla mübarizə üçün yeni üsulların kəşf edilməsinə və qarşılıqlı təcrübə mübadiləsi yolu ilə bacarıqlarımızı inkişaf etdirməyə imkan yaradacaq. Əməkdar incəsənət xadimi, polkovnik Abdulla Qurbaninin senarisi və rejissorluğu ilə hazırlanan "Əbədi, sarsılmaz qardaşlarıq biz" adlı musiqili-xoreoqrafik kompozisiya və "Üç qardaş" mahnısının təqdimatı ilə açılış mərasimi başa çatıb. Ekspertlərin fikrincə, Azərbaycan, Türkiyə və Pakistanın "Üç qardaş-2021" hərbi təlimləri rəsmi Bakının atacağı ən mühüm addımlardan biridir. Hər bir dövlət özünün müttəfiqləri ilə konkret vəziyyətə uyğun davranmaq məcburiyyətindədir. Biz də bir-birimizə dəstək vermək istiqamətində addımlar atırıq. Bu həm də gələcəkdə ekstremal vəziyyətdə birgə hərəkət etmək qabiliyyətinə yönəlib. Hamı görməlidir ki, Azərbaycan tək deyil və istənilən vaxt üç qardaş dövlət birlikdə hərəkət etmək iradəsini ortaya qoymağa qadirdir. Bizim güclü hərbi müttəfiqlərimiz var.

Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev birgə təlimlərin əhəmiyyəti ilə bağlı "Şərq"ə açıqlamasında deyib ki, Azərbaycan-Türkiyə və Pakistan əməkdaşlığı yeni hərbi-siyasi müstəviyə keçib. Professor bildirib ki, Azərbaycan və Türkiyə Pakistanın timsalında bir nüvə dövlətinin strateji tərəfdaşı olur: "Azərbaycanın müstəqillik tarixində ilk dəfə olaraq qardaş Türkiyə ilə bərabər Pakistan xüsusi təyinatlıları da ölkəmizdə hərbi təlimlərə başlayır. İndiki şəraitdə bu üç ölkənin birgə təlimi siyasi və strateji məqsədlərə söykənir. Siyasi səbəblər odur ki, son dönəmlər rəsmi Bakıya təzyiqlər artıb. Xüsusən, son zamanlar Kreml rəhbərinin imperiya ambisiyası qeyri-müəyyən istiqamətdə genişlənməkdədir. Məlum olduğu kimi Rusiya Belarusla "birgə dövlət" deyilən təxribata gedir. 28 protokoldan ibarət nələrsə hazırlayıblar və məhz 10 noyabrda sənədə imza atacaqlar. Kremlin hədəfləri Ermənistanla yanaşı, həm də Orta Asiya ölkələridir. Belə məqamda Azərbaycan-Türkiyə-Pakistan üçlü ittifaqı alternativ güc olaraq çox önəmlidir. Bu təlimlər təkcə Rusiyaya deyil, ondan geri qalmayan İrana da ciddi mesajdır. Reallıq isə odur ki, üç dövlətin birgə hərbi gücünün qarşısında nə Rusiya, nə də İran dayana bilər".

**Hərbi ekspert Ədalət Verdiyev isə "Şərq"ə açıqlamasında bildirib ki, Azərbaycan-Türkiyə-Pakistan xüsusi təyinatlılarının birgə hərbi təlimləri daha əvvəl imzalanmış Bakı Bəyannaməsinin praktiki yerinə yetirilməsidir:** "Birgə fəaliyyətlər tərəfdaş ölkələrə qarşı ərazi və digər iddialar irəli sürməyən heç bir dövlətə qarşı yönəlməyib. Təlimlərin əsas əhəmiyyəti ondan ibarətdir ki, üç dövlət arasında dostluq münasibətləri qardaş ölkələr səviyyəsinə çıxarılır. Digər yandan təlimlər regional miqyasda deyil, beynəlxalq miqyasda icra edilir. Regiondan kənarda yerləşən Pakistan da birgə təlimlərin əsas iştirakçısına çevrilir. Əgər Azərbaycan sərhədlərində təhdid törətmək cəhdləri olarsa, rəsmi Bakı bundan sonra rəqiblərinə qarşı bir hədəfə zərbə endirən üç dəmir yumruğu işə salacaq. Bu birliyə qarşı rəqiblərin, o cümlədən Ermənistanın və ona dəstək verənlərin faktiki olaraq müqavimət göstərmək potensialı sıfıra bərabərdir".

# Bayramlı getdi deyə bayram etməyin!

## Sığorta Agentliyi də üzərinə qoyulan öhdəliklərin öhdəsindən tam gələ bilmir

Aynurə Pənahqızı

(Əvvəli 1-ci səh.)



Razi Nurullayev: "Səhiyyə sahəsi çox dağınıq və xaotik olduğundan insanlarımız çox əziyyət, zülm çəkirlər"

**Azərbaycanda səhiyyə sisteminin çox dağınıq olduğunu vurğulayan Milli Məclisin deputatı Razi Nurullayev "Şərq"ə açıqlamasında deyib ki, ölkəmizdə ilk növbədə səhiyyə sisteminin bütövləşməsinə ehtiyac var. Deputat diqqətə çatdırıb ki, Azərbaycanda mütləq şəkildə səhiyyə sistemi unikallaşdırılmalıdır:** "Aydındır ki, Azərbaycanda sahələr üzrə bir çox məsələləri şəxslər müəyyən etmir və onlar islahat aparmır. Bunlar birbaşa dövlət başçısının nəzarəti altında verilən qanunlar əsasında icra olunur. Açığı, artıq bir şəxs istefa veribsə və vəzifədə deyilsə, onun arxasınca danışmağın lehinə deyiləm. Ən azından Ramin Bayramlı əgər istefa verdisə, bunun özü də bir mədəniyyətdir. "TƏBİB İdarə Heyətinin sədri Ramin Bayramlı vəzifəsindən getdi və bundan sonra səhiyyə sistemində hər şey gözəl olacaq"- deyə, düşüncə də yanlışdır. Bu günləri səhiyyə sistemi ölkəmizdə bütöv bir sistem deyil və bu sahədə çox dağınıqlıq var. Bu günləri Azərbaycanda Səhiyyə Nazirliyi, TƏBİB Tibbi Sığorta Agentliyi fəaliyyət göstərir. Həmçinin, Prezident Aparatında, Nazirlər Kabinetində müvafiq səhiyyə şöbələri mövcuddur. Ümumiyyətlə, Azərbaycanda hər bir nazirliyin özünün ayrıca Tibb Baş İdarəsi, klinikaları, xəstəxanaları var ki, bu da səhiyyə sahəsində birliyin, kombinasiyanın olmadığını açıq-aydın şəkildə göstərir. Azərbaycanda səhiyyə sahəsi çox dağınıq və xaotik olduğundan insanlarımız çox əziyyət, zülm çəkirlər".




**R.Nurullayev qeyd edib ki, ölkəmizdə sığorta sistemi də effektiv təşkil oluna bilmir:** "Bir çox həkimlər TƏBİB-in göstərişlərini, təlimatlarını, o cümlədən Tibbi Sığorta Agentliyinin təlimat və göstərişlərini birbaşa açıqcasına boykot edirdilər və bu gün də bu hallara rast gəlinir. Bu gün Sığorta Agentliyi də üzərinə qoyulan öhdəliklərin öhdəsindən tam gələ bilmir. Bütün bu məsələlər isə ondan irəli gəlir ki, bu sahədə bir koordinasiya, birlik yoxdur. Çünki bir-birindən müstəqil 5-6 tibb idarəsi fəaliyyət göstərərsə, təbii ki, o zaman hər hansı bir qurumun effektiv işləməsindən söhbət açmaq belə gülünc olar. Düşünürəm ki, ümumiyyətlə, səhiyyə sistemini sistemə salmaq üçün ya prezidentin, ya da baş nazirin yanında bununla bağlı müvafiq idarələrin iştirakı ilə bir tədbir, görüş keçirilməlidir. Bununla bağlı məsləhətlər, tövsiyələr dinlənilməli və səhiyyə sistemi Azərbaycanda unikallaşdırılmalıdır ki, bir yerdən idarə olunsun. Yaxud bir yerdən idarə olunmursa, o zaman ayrı-ayrı qurumların səlahiyyətləri bir-birilə paralellik təşkil etməməlidir. Ramin Bayramlının TƏBİB-dən getməsi və başqasının gəlməsi heç nəyi dəyişən məsələ deyil, bu sahədə mütləq şəkildə vahid sistem yaradılmalıdır".



# "Rus hərbçilərinə sülhməramlı statusu verilə bilməz"

## "Bunu yalnız BMT və yaxud ATƏT çərçivəsində etmək olar"

**Ərəstun Oruclu:**

**"Rusiya qoşunları Qarabağdan çıxdıqdan sonra Xankəndini ala bilərik"**

**Ikinci Qarabağ müharibəsinin başlanması ildönümünə az qalıb. Məlumdur ki, sentyabrın 27-si 2020-ci ildə Azərbaycan ordusu ermənilərin təxribatından sonra əks-hücum əməliyyatlarına başladı. Azərbaycan, Rusiya və Ermənistan rəhbərlərinin birgə imzaladığı üçtərəfli bəyanatla 44 günlük müharibə noyabrın 10-da yekunlaşdı.**

*Bu bəyanatın imzalanmasından sonra isə bölgədəki əhalinin təhlükəsizliyini təmin etmək məqsədi ilə rus "sülhməramlılarının" Qarabağa yerləşdirilməsinin şahidi olduq. Ancaq rusların şəxsi maraqları naminə ermənilərə dəstəyi, öz missiyalarını yerinə yetirməmələri Azərbaycan cəmiyyətində böyük narazılığa yol açıb.*

***Bölgədə gedən proseslərlə bağlı tanınmış politoloq, sabiq təhlükəsizlik zabiti Ərəstun Oruclu ilə həmsöhbət olduq. "Şərq" müsahibni təqdim edir:***

**- Sentyabrın 27-si yaxınlaşır. Ermənilərin yaxın zamanda hansısa təxribatı baş tuta bilər?**

- Şübhəsiz ki, 44 günlük müharibənin başlanğıcının 1-ci ili ilə bağlı ermənilərin hansısa təxribatlar törətmək cəhdləri olacaq. Düşünmürəm ki, bu, hansısa böyük miqyaslı təxribatlar ola bilər. Yalnız lokal şəkildə hansısa Azərbaycan postlarına hücum çəkmək və yaxud Azərbaycan ordusunun hissələri ilə rus "sülhməramlıları" arasında münaqişə yaratmaq kimi təxribatların baş tutması mümkündür. Məncə, ermənilər bunu bir təbliğat vasitəsi kimi həm ölkə daxilində, xüsusilə Qarabağda ermənilərin yaşadıqları ərazilərdə edə, həm də beynəlxalq diqqəti özünə cəlb etmək üçün müəyyən aksiyalar keçirə bilərlər. Söhbət ilk növbədə siyasi-ictimai xarakterli aksiyalardan gedir. Hansısa miqyaslı hərbi qarşıdurma yaratmaq onların marağında deyil və buna gücləri də yoxdur. Təbii ki, olarsa, bu vəziyyətdən Rusiya sui-istifadə edəcək. Çünki hazırda Azərbaycanla Rusiya arasında xeyli ziddiyyətli məsələlər var ki, rəsmi Moskva bundan narazıdır.

**- Rəsmi Bakı rus sülhməramlılarının fəaliyyətindən narazıdır. Rusiya açıq şəkildə Ermənistana dəstəyini göstərir. Azərbaycan tərəfi nə etməlidir?**

- Rusiya "sülhməramlılarının" ermənilərə açıq şəkildə dəstək verməsi, ermənilərin işğal altında qalan ərazilərdən nəinki çıxarılmasını təmin etməməsi, əksinə, onlara hərbi təlimlər keçməsi, yeni hərbi texnika və canlı qüvvənin bölgəyə gətirilməsinə şərait yaratmaqları Azərbaycan rəsmi dairələri və cəmiyyətində haqlı narazılıq doğurur. Fikrimcə, Azərbaycan ilk növbədə bu məqamların qarşısını almaq üçün 3 istiqamətdə fəaliyyət göstərməlidir. Birinci istiqamət odur ki, Rusiya Azərbaycandakı hərbçilərinə sülhməramlı statusunun verilməsi haqqında rəsmi Bakı ilə anlaşma istəyir. Buna qətiyyən yol vermək olmaz. Çünki sonrakı fəsadlar daha ciddi ola bilər. İkinci istiqamət isə budur ki, Azərbaycan müntəzəm olaraq rus "sülhməramlılarının" pozuntularını qeydə almalı və onlar barəsində Rusiya hökumətindən izahat tələb etməlidir. Üçüncüsü isə birinci və ikinci bəndlərdən istifadə edərək, Laçın dəhlizinin birgə nəzarətinə nail olmalıdır. Çünki Rusiya öz öhdəliklərini yerinə yetirmir. Üçtərəfli bəyanatın şərtlərinə əməl edən yeganə tərəf Azərbaycandır. Azərbaycan qalib ölkədir və belə çıxır ki, sanki məğlub kimi ona diktə olunan şərtləri icra edir. Bu, yanlışdır. Maksimum dərəcədə çalışıb, heç olmasa, rus hərbçiləri ilə birlikdə Laçın dəhlizinə nəzarətdə iştirak etmək lazımdır ki, Qarabağdan həm erməni əsgərləri çıxarılsın, həm də yeni silah-sursat və canlı qüvvənin gətirilməsinə imkan verilməsin.

**- Qeyd etdiniz ki, Rusiya bölgədəki hərbçilərinə rəsmi olaraq sülhməramlı statusunun verilməsini istəyir. Bu baş tutarsa, nələr yaşana bilər?**

- Rus hərbçilərinə heç bir halda rəsmi səviyyədə sülhməramlı statusu verilə bilməz. Bunu yalnız BMT və yaxud ATƏT çərçivəsində etmək olar. Digər tərəfdən isə Azərbaycan ərazisində Rusiya sülhməramlıları özünü faktiki olaraq işğalçı ordu kimi apardığından onlara verilə biləcək status bundan sonra onların mövqeyini daha da gücləndirəcək. Həmin sülhməramlılar birmənalı olaraq özlərini bölgənin sahibi kimi hiss edəcəklər. Mandatın verilməməsi isə rusların hüquqi baxımdan havadan asılı vəziyyətdə qalmasını təmin edir, gedişatı belə də saxlamaq lazımdır. Heç bir mandatdan söhbət gedə bilməz.

**- Xankəndinin aqibəti necə olacaq?**

- Bu bir az çətin sualdır... Xankəndinin taleyi indiyə qədər sadaladığım məsələlər, Rusiya-Ermənistan münasibətləri, Rusiyanın Qarabağda qarşısına qoyduğu məqsədlərin və hara qədər gedib çıxa biləcəyindən asılıdır. Bəzən belə iddialar irəli sürülür ki, Azərbaycan antiterror əməliyyatını həyata keçirə bilər. Düşünmürəm ki, bu əməliyyat Xankəndi üzrə keçirilsin. Xankəndini əldə etmək imkanımız noyabrın 9-da idi, təəssüf ki, bu edilmədi. İndi bütün vasitələrdən istifadə etməklə orada yaşayan erməni əhalisinə iki məqamı aşılamaq lazımdır. Birinci məqam odur ki, ya onlar Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və vətəndaşlığını qəbul edərək orada qalıb yaşayırlar. Ya da Azərbaycan onlar üçün elə bir imkan yaratmayacaq ki, separatçılıq fəaliyyətini davam etdirsinlər. Xankəndinin müqəddəratı yalnız bu halda həllini tapa bilər. Rusiya qoşunları Qarabağdan çıxdıqdan sonra Xankəndini ala bilərik. Nə qədər ki, Rusiya qoşunları oradadır, Xankəndinin aqibətini həll etmək üçün əlimizdə yetərincə imkanlar yoxdur.

**- Zəngəzur dəhlizinin tez zamanda açılması realdırmı?**

- Düzünü desəm, Zəngəzur dəhlizinin açılacağını gözləmirəm. Bugünkü Ermənistan hökuməti çox gözəl anlayır ki, Zəngəzur dəhlizi ilk növbədə Rusiyanın bu dəhlizdən Naxçıvan vasitəsilə İrana və Yaxın Şərqə çıxışını təmin etmək üçündür. Yəni silah-sursat və hərbi qüvvə daşınması üçün dəhliz əsasən ruslara lazımdır. Rusiya hərbi-strateji dəhliz açır ki, Yaxın Şərqə çıxa bilsin və qlobal siyasətdə öz sözünü deməyə imkan əldə etsin. Təbii ki, bu məqamda həm Azərbaycan, həm də Ermənistandan istifadə etməyə çalışır. Ermənistan Zəngəzur dəhlizini vermirsə, düşünmürəm ki, bu məsələnin üzərində israrla dayanmalıyıq. Azərbaycan dəhlizin açılmasını tələb etməklə diplomatik dividend qazanıb, Ermənistan və Rusiyanı fakt qarşısında qoya bilər. Yəni nə Rusiya bu dəhlizin açılmasını təmin edir, nə də Ermənistan buna imkan yaradır. Mövcud şəraitdə əldə etdiyimiz qazanc yalnız bu ola bilər. Diplomatik faktor kimi dəhlizin açılmamasından istifadə etmək və son nəticədə, ola bilsin, 10 noyabr bəyanatının şərtlərinin yerinə yetirilmədiyinə görə həmin bəyanatdan çıxmaq mümkün olsun. Bu da siyasi və geosiyasi reallıq yarandıqda olar. Hazırda bu, mümkün deyil. Lakin gələcəkdə heç kim bunu istisna edə bilməz.

**- Ermənistanın zaman-zaman təxribatlarına şahid oluruq. Cavab olaraq antiterror əməliyyatlarına başlaya bilərikmi?**

- Ermənistan təxribatları Rusiya ilə birgə planlı şəkildə həyata keçirir ki, Azərbaycan tərəfi məhz antiterror əməliyyatına başlayaraq rus qoşunları ilə toqquşsun və Rusiya sülhməramlılarını qorumaq adı altında bölgəyə daha çox hərbi güc yeritsin. Bu, 2008-ci ilin senarisidir və Cənubi Osetiyada tətbiq olunub. Hazırda Kremlə yaxın təbliğatçılar və ekspertlər açıq şəkildə həmin ssenari Azərbaycanı hədələyirlər. Ola bilsin ki, onlar Azərbaycanın antiterror əməliyyatı keçirə biləcəyindən ehtiyatlanıb belə bir profilaktik hədə-qorxu gəlirlər. Ancaq bu, hər bir halda riskli addımdır. Düşünürəm ki, antiterror əməliyyatların zamanı hələ gəlib çatmayıb. Təxribatçıları cavab atəşi ilə susdurmaq və bunu mümkün qədər effektiv etmək lazımdır. Yəni Azərbaycan hərbçilərinə qarşı təxribat törədən ermənilər məhv edilməlidir ki, bu, hər kəsə dərs olsun.

**- Ermənistan rəsmi Bakı ilə yekun sülh müqaviləsini imzalayacaqmı?**

- Sülh müqaviləsinin imzalanma prosesi uzunmüddətli danışıqların nəticəsi ola bilər. 30 ildən çox tarixi olan bir münaqişənin sülh müqaviləsi ilə həlli qısa zamanda mümkünsüzdür. Xarici amillərin təsiri, onların sülh prosesinə neqativ münasibəti var. Baxmayaraq ki, hamısı sülhdən danışır, əslində tamam başqa məqsədləri güdürlər. Fikrimcə, vasitəçi Gürcüstan olarsa, sülh danışıqlarını başlamaq olar. İşin gedişatında da məsələnin necə həll olunacağı və sülh müqaviləsinin hansı şərtlər çərçivəsində imzalanacağı aydınlaşar. Azərbaycan müharibədən qalib çıxmış ölkədir, Ermənistan isə məğlub olub, böyük itkilər verib, ölkədəki bütün infrastruktur demək olar ki, çöküb. Bu şəraitdə Ermənistanın yeganə çıxış yolu Azərbaycanın ərazi bütövlüyünü tanımaq olardı. Amma bir çox səbəbdən, əsasən də daxili-siyasi səbəblərdən hələlik bunu edə bilməzlər. Hər bir halda sülh prosesinə başlamaq lazımdır. Məsələn, Gürcüstanın vasitəçiliyi ilə bölgədə maraqları olan və münaqişədən öz aləti kimi istifadə etməyə çalışan böyük güclərin sülh prosesinə təsirindən kənarlaşdırmaq olar. Nə qədər ki, onların təsiri olacaq, heç bir sülh müqaviləsi imzalana bilməz. Nümunə olaraq ATƏT-in Minsk qrupunun həmsədrlər formatını deyə bilərəm. Sülh üçün yalnız uzunmüddətli danışıqlar, şərtlərin müəyyənləşdirilməsi, kommunikasiyaların açılması, iqtisadi əlaqələrin qismən də bərpası və müəyyən etimad yaranması lazımdır. Etimad yarandıqdan sonra sülh müqaviləsi haqqında düşünmək olar. Hələlik isə çox tezdir.

Söhbətləşdi: Yeganə Bayramova

# "5-6 aya "Yeni Azərbaycan" bir nömrəli qəzetə çevriləcək"




İsmayıl Qocayev

**Məlum olduğu kimi tanınmış jurnalist Alqış Musayev (Həsənoğlu) yenidən "Yeni Azərbaycan" qəzetinin baş redaktoru təyin olunub. Bununla bağlı YAP İdarə Heyətinin ötən gün keçirilən iclasında qərar qəbul edilib. Bundan əvvəl "Yeni Azərbaycan" qəzetinin baş redaktoru millət vəkili Hikmət Babaoğlu idi.**

O, YAP-ın yeni qərarı ilə Milli Məclisdə hakim partiyanı təmsil edən deputatların əlaqələndiricisi funksiyasını yerinə yetirəcək. Xatırladaq ki, Alqış Həsənoğlu əvvəllər də uzun müddət qəzetin baş redaktoru olub.

**Təyinatla bağlı "Şərq"ə danışan və fikirlərini bölüşən baş redaktor bildirib ki, bu, cənab Sədrin və Yeni Azərbaycan Partiyası rəhbərliyinin qərarıdır. A.Həsənoğlu vurğulayıb ki, ulu öndərin və cənab Prezidentin əsgəri kimi ona hansı vəzifəni münasib bilsələr, orada xidmətini icra edəcək:** "Təbii ki, bu, etimaddır. Etimadın böyüyü, kiçiyi olmur. Düşünürəm ki, bu etimad həm də üzərimə qoyulan böyük məsuliyyət yüküdür. Bundan sonra əsas məsələ mənə göstərilən etimadı doğrultmaqdır. Bunun üçün məsuliyyətin ən xırda detallarına qədər mənimsəmək, işləmək lazımdır. Bu gün Azərbaycan mətbuatı özünün çətin dövrünü yaşayır. Bu reallığı "Yeni Azərbaycan" qəzetinə də şamil etmək mümkündür. Hətta deyərdim ki, "Yeni Azərbaycan" qəzetinin hazırkı durumu ölkə mətbuatının vəziyyətindən daha ağırdır. Gecə-gündüz işləmək lazımdır. Problemlər çoxdur. Qəzetin texniki imkanları məhduddur. Texniki imkanlar isə artıq tükənmək üzrədir".

Baş redaktor qeyd edib ki, texniki avadanlıqların köhnəliyi hər hansı dəyişikliyə mane olur: "Qəzetin yeni formata keçməsi üçün yeni dizayn vermək lazımdır və əfsuslar ki, bizim köhnə kompüterlərimiz buna imkan vermir. Adi dizaynı vermək belə qeyri-mümkündür". Sözümün canı odur ki, görüləsi iş həddindən artıqdır. Müasir dövr yeni impuls və yanaşma tələb edir. Populyarlığı qaytarmaq üçün bir sıra yeni şərtlərə cavab vermək lazımdır. Hər şeydən öncə maddi-texniki bazanı tamamilə yeniləməliyik".

**A.Həsənoğlu hər şeyə rəğmən, "Yeni Azərbaycan"a əvvəlki nüfuzunu qaytaracağını söyləyib:** "Böyük işlər görmək arzusundayıq. Əgər nəzərdə tutduqlarımızı gerçəkləşdirə bilsək, "Yeni Azərbaycan" 5-6 ay ərzində Azərbaycanda bir nömrəli qəzetlərdən birinə çevriləcək. İctimai rəyə təsir edən ciddi tribunalardan biri olacaq. Əslində belə də olmalıdır. Yeni Azərbaycan Partiyası ümummilli və hakim partiya olduğuna görə, onun qəzeti də ictimai rəyi formalaşdıran alternativsiz tribuna olmağı bacarmalıdır. Əsas məsələ budur".



Sentyabrın 15-i eyvanlarımızı Azərbaycan, Türkiyə bayraqları bəzəsin

# Qarabağ zəfərinin 1 ili, Bakının qurtuluşunun 103-cü ili gəlir

İsmayıl Qocayev

**Sabah, yəni sentyabrın 15-i Bakının bolşevik-daşnak işğalçılarından xilas edilməsinin 103-cü ildönümüdür. 103 il bundan əvvəl, 1918-ci ildə Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu və Azərbaycan Korpusu Bakıya daxil olaraq şəhəri düşmən qüvvələrdən təmizləyib. Beləliklə, həm Azərbaycanın müstəqilliyi təmin olunub, həm də ermənilərin və bolşeviklərin Bakı və ətraf rayonlardakı ağalığına son qoyulub. Heç şübhəsiz, Bakının erməni-bolşevik işğalından azad edilməsi XX əsr Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biridir.**

Möhtəşəm və tarixi qələbədən sonra Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin paytaxtı sentyabrın 17-də Gəncə şəhərindən Bakıya köçürülüb. Beləliklə, Azərbaycanda dövlət quruculuğunun əsas mərhələsinə start verilib. Türk ordusunun Bakını bolşevik-daşnak işğalından azad etməsi şəhərdə əsl bayrama səbəb olub. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti türk ordusunun şərəfinə təntənəli ziyafət təşkil edib. Ziyafət indiki Dövlət Filarmoniyasının binasında keçirilib. Tağıyev türk ordusunun komandanı Nuru Paşaya və onun qəhrəman sərkərdələrinə hədiyyələr təqdim edib. 1918-ci il sentyabrın 15-də Bakının azad olunması Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı zəminində müstəsna əhəmiyyət daşıyan böyük hadisədir. Osmanlı qoşunları Bakının azad olunması üçün həyata keçirdikləri hərbi əməliyyatlarda 1130 şəhid veriblər. Azərbaycan növbəti dəfə müstəqillik qazandıqdan sonra hər il sentyabrın 15-də təkcə Bakıda deyil, Şamaxıda, Göyçayda və digər rayonlarda ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan türk əsgərlərinin məzarları ziyarət olunur. Hər il Şəhidlər Xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış "Türk Şəhidliyi" abidəsi önündə anma mərasimi keçirilir. Lakin ictimaiyyət nümayəndələri, tarixçilər hesab edirlər ki, xilaskar Qafqaz İslam Ordusunun şanlı əsgərlərinə vəfa borcumuzu ifadə etmək üçün daha genişmiqyaslı tədbirlər, mərasimlər təşkil edilməlidir. Bu möhtəşəm tarixi gün sadəcə dar çərçivələrdə qeyd olunmamalı, bir-iki onlayn tədbirlə yola verilməməlidir. İctimaiyyət, xalq olaraq Bakının və dolayısı ilə Azərbaycanın xilas edilməsinin haqqını verməliyik. Artıq sosial şəbəkədə bununla bağlı bir sıra təkliflər səslənməkdədir. Vurğulanır ki, əgər mövcud pandemiya şəraiti geniş tərkibli konfranslara, təntənəli mərasimlərə imkan vermirsə, ən azından hər kəs evinin eyvanından, iş yerindən Azərbaycan və Türkiyə bayraqlarını asa bilər.

**Tarixçi-alim Boran Əzizli "Şərq"ə açıqlamasında vurğulayıb ki, Azərbaycan tarixində çox önəmli hadisələrdən biri Bakının düşməndən azad edilməsi və paytaxta çevrilməsidir. Alim qeyd edib ki, Bakının azadlığı, 28 may Respublika Günü qədər əhəmiyyətlidir:** "Könül istərdi ki, bütün Azərbaycanda, hətta türk dünyasında 15 sentyabr təntənəli şəkildə bayram edilərdi. Cümhuriyyətə qədər Azərbaycanın dövlətçilik tarixi böyük yol keçib. Lakin bu dövlətlərin heç birinin adı - Azərbaycan, paytaxtı Bakı olmayıb. Tarixdə ilk dəfə olaraq hazırda yaşadığımız ərazini yadelli işğalçılardan azad edənlər məhz Qafqaz İslam Ordusu olub. Ona görə də sentyabrın 15-i ümumxalq bayramı olmalıdır. Həmin günün xüsusi qeyd edilməsi həm də Bakının xilası uğrunda canlarını qurban vermiş şəhidlərə vəfa borcumuzun yerinə yetirilməsidir. Şəhid Osmanlı mehmetçiklərinin və Azərbaycanın igid oğullarınun ruhu qarşısında təzim etməkdir. Onları anmaq çiyinlərimizin borcudur. Bakının azadlığı eyni zamanda Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasıdır. Paytaxtdan sonra Qarabağ, Naxçıvan və digər bölgələrimizdə Cümhuriyyətin suveren hüquqları bərpa edildi. Mübahisəsiz 96 min kvadrat kilometr ərazimiz birləşdirildi".

**B.Əzizlinin sözlərinə görə, xüsusən, indiki mərhələdə, şanlı qələbəmizin birici ildönünümü ərəfəsində Bakının azadlığının qeyd olunması xüsusi əhəmiyyət kəsb edir:** "44 günlük savaşı elə-belə qazanmamışıq. Azərbaycan və Türkiyənin keçdiyi hərb tarixinə nəzər salanlar tarixi gerçəkliyi görəcəklər. Qafqaz İslam Ordusunun komandanı Nuru Paşa ilə yanaşı, orduda döyüşən sıravi əsgərləri, Mürsəl Bakü paşa başda olmaqla digər türk zabitlərinin əməyini qeyd etməmək allahsızlıq olardı. Hamısı bizim üçün əzizdir, dəyərlidir. İstərdik ki, 15 sentyabrda Şəhidlər Xiyabındakı türk mehmetçiklərinin məzarları üzərinə əklil qoymaqla kifayətlənməsinlər. Gəncədən Bakıya qədər yolboyu kimsəsiz qalmış türk şəhid məzarlarını da ziyarət edək. Məzarlarına çiçəklər qoyaq, ruhlarına dua oxuyaq. Təbii ki, Qafqaz İslam Ordusunun fədakarlığına qiymət verməyi bacaranlar, yaşam tərzində bunu əxlaqi nümunəyə çevirənlər öz hörmətlərini yenə də göstərəcəklər. Amma arzumuz odur ki, toplum halında bunu edək və vazkeçilməz ənənəyə çevirək. Hər halda 15 sentyabr türk xalqlarının birliyini arzulayanların ən böyük bayramlarından biridir və o cür də qalacaq".

**AXC dövrünün tədqiqatçısı, araşdırmaçı-jurnalist Dilqəm Əhməd də "Şərq"ə bildirib ki, 15 sentyabr təkcə Bakının azad edilməsi deyil, həm də Azərbaycan adlı dövlətin mövcudluğunun əsasıdır. Onun sözlərinə görə, bu mövcudluğu məhz Osmanlı dövlətinin sultanı, hərbiyyə naziri və Qafqaz İslam Ordusunun komandanı Nuru Paşa bizə bəxş edib:** "Başda Məhəmməd Əmin Rəsulzadə olmaqla Azərbaycan dövlətinin rəhbərləri sayəsində Batum müqaviləsi imzalanıb və bunun əsasında Bakı azad edilib. Ona görə də düşünürəm ki, bu tarixi hadisə bu il məhz işğaldan azad edilmiş torpaqlarımızda keçirilməlidir. Osmanlı paşaları o zaman həm də Şuşaya gəlmişdilər. Cəmil Cahid paşa Şuşada olmuşdu. Ona görə də Cıdır düzündə bir mərasim keçirilərsə və hərbi parad olarsa, yaxşı qarşılanar. Bir də illərdir ki, Nuru Paşanın heykəlinin qoyulmasının arzusundayıq. Türkiyə-Azərbaycan münasibətlərinin bu qədər yaxın olduğu bir məqamda bu heykəl layihəsi nəhayətlənsə gözəl olardı".

# Zərəri xalqa dəyir

## Sərdar Cəlaloğlu: "Dünyanın hansı ölkəsindəki səhiyyə sistemi ikibaşlıdır?"



**"Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı öz ərizəsi ilə tutduğu vəzifədən azad edilib.**

Bu barədə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyindən məlumat verilib. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin (Agentlik) İdarə Heyətinin sədri Zaur Əliyev onun işdən azad edilməsi ilə bağlı ərizəsini təsdiq edib. TƏBİB-in İdarə Heyəti sədrinin müşaviri Şəhriyar Fətullayev da istefa verib. Daha bir məlumata görə isə "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin (TƏBİB) İdarə Heyətinin sədri vəzifəsinin müvəqqəti icrası Vüqar Cavanşir oğlu Qurbanova həvalə edilib.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin (TƏBİB) İdarə Heyətinin sədri vəzifəsini müvəqqəti icra edəcək Vüqar Qurbanov kollektivə təqdim olunub.

Bu barədə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyindən məlumat verilib. Bildirilib ki, kollektivə təqdim edilən V.Qurbanov artıq bu gündən etibarən vəzifəsinin icrasına başlayıb.

**Azərbaycan Demokrat Partiyasının (ADP) sədri, həkim Sərdar Cəlaloğlu TƏBİB-dəki qovğa barədə fikirlərini "Şərq"lə bölüşüb:**

"Ümumiyyətlə, mən indiyədək həmin qurumun niyə yarandığını anlaya bilmirəm. Dünyanın hansı ölkəsindəki səhiyyə sistemi ikibaşlıdır? Bunlar eksperiment xarakterli addımlardır. Və zərəri xalqa dəyir. İndi TƏBİB-də külli miqdarda yeyintinin olması üzə çıxıb. Görünür, idarəetmənin təşkilində qüsurlar var və kadrlar düzgün seçilmir".

**Kənan**

# Pul çatdırmaq olmur

## Koronavirusdan evdə müalicə olunanlar narazılıq edir



Yeganə Bayramova

**Azərbaycanda koronavirusa yoluxmuş şəxslər simptomlardan asılı olaraq ev şəraitində də müalicə olunur.**

Səhiyyə Nazirliyinin evdə müalicə ilə bağlı açıqladığı qaydalara əsasən, yoluxma halı təsdiqlənərsə, xəstəliyi yüngül formada keçirən şəxslər həkim rəyinə əsasən yaşadıqları evdə müalicələrini davam etdirir. Ancaq evdə qalmalı olan vətəndaşların böyük əksəriyyəti mövcud durumdan narazıdır.

Məsələn, redaksiyamıza onlayn müraciət edən vətəndaşlardan biri ailə üzvü ilə virusa yoluxduğunu söyləyib. Vətəndaş qeyd edib ki, həkim ailənin 4 üzvünə təxminən 300-400 manat civarında müalicə yazıb. Ancaq onların bu müalicəni davam etdirmək imkanları çox çətindir. Çünki 4 nəfərin evdə sağalması üçün 2 min manata yaxın vəsait tələb olunur. Yəqin ki, müalicə xəstəxanada aparılsaydı, bu rəqəm 2 qat baha olardı.

**Vətəndaşların özübaşına buraxıldığını söyləyən Vətəndaş və İnkişaf Partiyasının sədri, ixtisasca həkim Əli Əliyev "Şərq"ə vurğulayıb ki, təkcə sağlamlıqla bağlı yox, təhsil sahəsindəki vəziyyət də ürəkaçan deyil:** "Dövlətin vətəndaşa hansısa dəstəyi yoxdur. TƏBİB kimi qurumlar xəstəliyi müalicə etmək üçün yox, Ramin Bayramlının dəbdəbəli villa tikdirməsi üçün lazımdır. Belə qurumlar vətəndaşların sağlamlığı sahəsində fəaliyyət göstərmir".

# Proses şəffaf aparılmalıdır

## Həddindən çox insan dövlət xətti ilə verilən kirayə mənzillərlə maraqlanır

**Dövlət xətti ilə kirayə verilən mənzillərin sayı açıqlanıb. İpoteka və Kredit Zəmanət Fondu tərəfindən verilmiş ipoteka kreditlərinin həcmi 1,9 milyard manatı ötüb. Ümumilikdə bu günə qədər fond 35 416 borcalana 1 900 902 211 manat məbləğində ipoteka krediti verib.**

Vətəndaşlar 2020-ci ilin mart ayından etibarən yaşayış sahələrinin satmaq öhdəliyi ilə kirayəyə verilməsi mexanizmi üzrə müraciət etməyə başlayıb və bu günə qədər ümumi 991 mənzil satmaq öhdəliyi ilə kirayəçilərin istifadəsinə verilib.

Təkcə 2021-ci ilə nəzər saldıqda isə ilin əvvəlindən bu günə qədər dövlət xətti ilə kirayəçilərə satmaq öhdəliyi ilə 578 mənzil təqdim edilib.

Qeyd edək ki, vətəndaşların bir qismi dövlət xətti ilə kirayə verilən mənzillərlə bağlı şəffaflığın təmin edilməməsindən narazıdır. Maraqlıdır, bu sistemin şəffaf olması üçün hansı tədbirlər görülə bilər?

**Sualımızı cavablandıran iqtisadçı-ekspert Natiq Cəfərli "Şərq"ə söyləyib ki, bu məsələ ilə məşğul olan dövlət qurumlarının saytlarındakı məlumatlar o qədər azdır ki, vətəndaşlar yetərli informasiyaya yiyələnə bilmirlər:**

"Ona görə də əhalinin dövlət xətti ilə verilən kirayə mənzilləri əldə etməsində müəyyən problemlər yaranır. Dövlət bu sahədə şəffaflığın təmin edilməsi ilə bağlı işlər görməlidir. Həm informasiya sahəsində effektivlik təmin edilməli, həm də qiymətlər əlçatan olmalıdır. Kirayə mənzillərlə bağlı qeydiyyatdan keçən vətəndaşlara şəffaf şəkildə xidmət göstərilməlidir. Çünki həddindən çox insan dövlət xətti ilə verilən kirayə mənzillərlə maraqlanır. Ona görə də qeydiyyatı uğurla tamamlayan şəxslərin bu mənzillərdən yararlanmasını tam şəffaf təmin etmək lazımdır. Bu zaman mövcud narazılıqlar aradan qalxacaq".

**Yeganə**

# "Vasitəçilərin bölgədə yaranmış sülhü pozmaq cəhdlərini görürük"

## Deputat: "ABŞ səfiri həmsədr ölkənin təmsilçisi olduğunu unutmamalıdır"

Yeganə Bayramova






**"ATƏT-in Minsk Qrupu həmsədrlərinin 27 illik fəaliyyətsizliyi, işğalçıya verdikləri dəstək bu bölgədə uzun müddət sülh və təhlükəsizliyə zərbə vurdu. Bu səbəbdən Azərbaycan Prezidenti bəyam edir ki, əslində 44 günlük savaşın başlamasında beynəlxalq birliyin məsuliyyəti Ermənistandan çoxdur. Çünki vaxtında Ermənistana qarşı cəza tədbirlərinin görülməməsi vəziyyətin kritik həddə çatmasına səbəb oldu.**

Bununla belə, yeni mərhələdə bu üçlük konstruktiv fəaliyyət göstərə bilər. Prezident İlham Əliyev də bəyan edib ki, biz vasitəçilərdən təkliflər gözləyirik.Təəssüf ki, müharibənin başa çatmasından ötən 9 ay ərzində vasitəçilərin irəli sürdüyü bütün təklif və rəylər sülh prosesini pozmağa yönəlib".

**Bu barədə millət vəkili Könül Nurullayeva "Şərq"ə bildirib. Xanım parlamentari qeyd edib ki, ABŞ-ın Ermənistandakı səfirinin "Dağlıq Qarabağın statusu məsələsinin həll olunduğunu hesab etmirik" fikri bunu bir daha təsdiqləyir.** Bu yanaşma postmüharibə dövründə də həmsədrlik institutunun yarıtmaz fəaliyyətinin davam etdiyini göstərir. Həmsədrlər başda olmaqla bütün beynəlxalq ictimaiyyət anlamalıdır ki, münaqişə artıq bitib və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edib. Azərbaycan XİN-in məsələ ilə bağlı bəyanatında da vurğulandığı kimi, Azərbaycan Prezidentinin 7 iyul 2021-ci il tarixli Sərəncamı ilə Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonları yaradılıb. Bu ərazilər Azərbaycanın tərkib hissəsidir və hər hansı statusdan söhbət gedə bilməz:

"Ali baş Komandan İlham Əliyevin də söylədiyi kimi, status gorbagor olub. Digər tərəfdən, Minsk Qrupu həmsədrləri indiki mərhələdə hansı gündəlikdən bəhs edir? Gündəlikdə bu gün 1 məsələ var - 10 noyabr 2020-ci il üçtərəfli bəyanatın müddəalarının icrası. Vasitəçilər yeni mərhələdə bu razılaşmanın bəndlərinə əməl etməsi üçün Ermənistana təzyiq göstərməlidirlər. Bundan sonra artıq yekun sülh sazişi barəd düşünmək olar. Yəni, Minsk Qrupu öz gündəliyinə qondarma status məsələsini yox, 10 noyabr razılaşmasının icrasını daxil etməlidir. Otuz il ərzində guya bölgədə sülhün tərəfdarı olduqlarına dair görüntü yaradan həmsədrlər bu sülhü yaratmaq üçün heç bir səy göstərmədilər. Onların əsas məqsədi təslimçi sülhə nail olmaq idi. Təbii ki, Azərbaycan heç vaxt bununla barışa bilməzdi və barışmadı da. Biz eyni zamanda vasitəçilərin bu gün bölgədə yaranmış sülhü pozmaq cəhdlərini görürük. Halbuki regionda tərəflər arasında münasibətlərin normallaşması üçün tarixi imkan yaranıb. Belə bir vəziyyətdə ABŞ səfirinin vəziyyəti gərginləşdirmək cəhdləri həmsədrlik institutunun fəaliyyətinin yeni mərhələdə də konstruktiv xarakter daşımadığını söyləməyə əsas verir. Belə yarıtmaz fəaliyyət isə bölgədə əsas söz sahibi olan Azərbaycanı heç bir halda qane edə bilməz. Vasitəçilər də, onlara bel bağlayan Ermənistan da buna ümid edirsə, yanılır".

# Azərbaycan və Ukrayna əlaqələri yeni müstəviyə çıxır

## Bakı və Kiyev arasında əməkdaşlıq region ölkələri üçün yaxşı örnəkdir

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi**

Məlahət Rzayeva

**Tarixən Qafqaz regionunda təbii sərvətləri, maddi-mədəniyyət nümunələri, siyasi fəallığı, alicənab keyfiyyətlərə məxsus xalqı ilə seçilən Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra daha da tanındı. Bu tanınmada ölkəmizin əldə etdiyi iqtisadi inkişaf əsas rol oynadı.**

Aparılan uğurlu siyasət nəticəsində nəinki region ölkələri, dünyanın əksər dövlətləri Azərbaycanla əlaqələr yaratmağa, əməkdaşlığa maraq göstərdi. Son 20 ildə Azərbaycan regionun aparıcı dövlətinə çevrildi. Qalibiyyətlə başa çatan 44 günlük Vətən savaşında dövlətimizin ərazi bütövlüyünü bərpa etməsi, işğal altındakı torpaqları azad etməsi, həmçinin zaman gözləmədən Qarabağda nəhəng quruculuq işlərinə başlaması isə Azərbaycanın güc və qüdrətinin təzahürünə çevrilib. Təbii ki, belə bir dövlətlə hesablaşılacaq, sözü dinlənəcək və qəbul ediləcək. Bu tendensiya Vətən müharibəsindən əvvəl də mövcud idi. Beynəlxalq təşkilatlar, dünyanın istər aparıcı, istərsə də inkişaf etməkdə olan dövlətləri Azərbaycanla siyasi dialoq, iqtisadi və humanitar, eləcə də ictimai təsisatlar sahəsində əməkdaşlıqlarını genişləndirirdilər. Amma əlbəttə ki, 44 günlük Vətən savaşımız ölkəmiz və dövlətimizin mövqeyini daha da möhkəmləndirdi.

Azərbaycan dünyaya bir çox sahələrdə nümunədir. Bu günlərdə Ukrayna paytaxtında Bakı və Kiyev şəhərləri arasında Qardaşlaşma haqqında "Niyyət protokolu"na imza atan Kiyev şəhərinin meri Vitali Kliçko da çıxışında məhz bunu vurğulayıb. Xatırladaq ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovun Ukrayna paytaxtına səfəri çərçivəsində məlum "Niyyət protokolu" imzalanıb. İmzalanma mərasimindən əvvəl çıxış edən Vitali Kliçko bildirib ki, Bakı olduqca sürətlə inkişaf edir. Azərbaycan paytaxtında möhtəşəm layihələr həyata keçirilib: "Biz Bakıda həyata keçirilən bəzi müasir layihələri öyrənərək Kiyevdə tətbiq edirik. Ümid edirəm ki, yaxın gələcəkdə Bakıya növbəti səfərim zamanı yeni maraqlı layihələrin şahidi olacağam". Kiyev şəhərinin meri vurğulayıb ki, imzalanan yeni "Niyyət protokolu" iki dost şəhər arasında iqtisadi, ticarət, mədəniyyət, turizm sahələrində əməkdaşlığı daha da gücləndirəcək. Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov qeyd edib ki, yeni "Niyyət protokolu" iki şəhər arasında əlaqələri yeni müstəviyə çıxaracaq: "Bakı və Kiyev şəhərləri arasında əməkdaşlığın inkişafı bizi sevindirir. Ukrayna paytaxtında da maraqlı layihələr həyata keçirilir və biz bu səfər çərçivəsində bunun şahidi olduq". Görüşdə iki şəhər arasında 1997-ci ildə imzalanmış əməkdaşlığa dair saziş əsasında mövcud qardaşlaşma əlaqələrinin daha da genişləndirilməsi barədə qərar qəbul edilib və həmçinin Azərbaycanın ötən il düşmən üzərində qazandığı şanlı qələbə nəticəsində azad edilmiş torpaqlarda böyük sürətlə aparılan bərpa-quruculuq işləri barədə məlumat verilib. Görüşdə Kiyev meriyasına və Ukraynanın KİV nümayəndələrinə erməni millətçilərinin işğal altında olmuş ərazilərimizdə törətdikləri vandalizm faktlarını əks etdirən foto-albomlar təqdim edilib. İmzalanma mərasimində Azərbaycanın Ukraynadakı səfiri Elmira Axundova da iştirak edib.





Bundan başqa, Ukrayna paytaxtında Kiyev İnvestisiya Forumu da təşkil olunub. Kiyevə rəsmi səfər çərçivəsində Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov və nümayəndə heyəti üzvləri həmin Forumda da iştirak ediblər. Bakı Şəhər İcra Hakimiyyətindən verilən məlumata görə, Eldar Əzizov Forumda Bakı şəhərinin inkişafı haqqında geniş məlumat verib. Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Kiyev İnvestisiya Forumunda çıxışı zamanı qeyd edib ki, bu gün Bakı regionun iqtisadi və mədəniyyət mərkəzi kimi inkişaf etməkdə davam edir. E.Əzizov bildirib ki, pandemiya dövründə koronavirusa qarşı mübarizənin yaratdığı çətinliklərə baxmayaraq Bakı şəhərində iri infrastruktur layihələr gerçəkləşdirilir, yeni məktəblər, uşaq bağçaları tikilir və əsaslı təmir edilir, yollar salınır, yenilənir. Həmçinin Forum iştirakçılarına Ermənistanın işğal altında olmuş ərazilərimizdə törətdiyi vandalizm faktları, dağıdılan şəhər və kəndlər, mədəniyyət abidələri barədə məlumat verilib. Forumda çıxış edən Kiyev meri Vitali Kliçko bildirib ki, Bakı sürətli inkişafına görə dünyanın "top şəhərlər"i arasındadır: "Kiyev şəhərinin inkişafında Bakının təcrübəsindən yararlanmaqda israrlıyıq". Sonra panellər üzrə davam edən Kiyev İnvestisiya Forumunda müxtəlif təqdimatlar keçirilib. Belə səfərlər və imzalanan rəsmi protokollar 2 ölkə arasında əlaqələrin daha da möhkəmlənməsinə xidmət etməklə yanaşı, eyni zamanda region ölkələri üçün də yaxşı nümunədir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# Ağakərim danışa bilir, adamları tanıyır

## Sadəcə yeriyə bilmir, yataq xəstəsidir

**Son günlər meyxanaçı Kərim Novruzovun (Ağakərim) vəziyyətinin ağırlaşması, yaxud da vəfat etməsi ilə bağlı xəbərlər yayılır. Ailəsi bu tip məlumtları təkzib etsə də, sevənləri, xiridarlar söz ustası üçün narahat olurlar.**

*"Şərq"lə həmsöhbət olan meyxanaçının bacısı oğlu Rüstəm Cənnətov dayısının son sağlıq durumu haqda bunları söyləyib:*

"Vəziyyəti ağır deyil, amma yataq xəstəsidir. Allah nə qədər ömür veribsə, yaşayacaq. Müalicəsi davam edir, nə lazımdırsa edirik. Normal danışa bilir, adamları tanıyır. Sadəcə yeriyə bilmir. Saytlar reytinq üçün yalandan yaymışdılar ki, rəhmətə gedib. Kimsə populyar olmaq istəyirdi, alınmadı. Ağamirzə Məmmədovun adını mütləq qeyd edin, hər dəfə yanına gedib-gəlir. Dostlarından tez-tez Ağakərimə baş çəkən Ağamirzədir. O birilər də maraqlanırlar".

"Ailəsinin meyxanaçı Samirəni evə buraxmaması nə ilə bağlıdır" sualına R.Cənnətov bu cavabı verib:

"Ağamirzə üçün yaşıl işıqdır. Bəziləri gəlib, şəkil çəkdirirlər, paylaşırlar. O vəziyyətdə görünməsini istəmirik. Amma başqaları da gəlirlər. Ola bilər ki, Samirəni qoymayıblar. Çəkilişə görə icazə verməyiblər. Çəkiliş üçün gələnləri də evə buraxmadılar".

**Samirə**

# Heç kim ölmək istəmir

## Koronavirusdan sağalmış şəxslərə peyvənd vurulması məsləhət deyil

Aynurə Pənahqızı

**"Peyvənd bütün hallarda müvafiq infeksiyanın orqanizmdə "nisbi xəstələnmə modelini" yaradır. Odur ki, istənilən halda peyvənddən sonra inyeksiya yerində ağrının olması, hətta bir neçə gün davam etməsi, qızdırma, üşütmə, halsızlıq, ishal, baş, əzələ, oynaq ağrısı və s. normal gözləntilərdir. Yəni bunlar peyvəndin yan təsirləri deyil, yalnız formalaşan immunitetə orqanizmin lokal və ya sistem reaksiyasıdır. Və o, qısa müddətdən sonra tamamilə aradan qalxır".**



*Bu sözləri tibb elmləri doktoru, professor Musa Qəniyev "Şərq"ə açıqlamasında deyib. Professor qeyd edib ki, istənilən infeksiyaya qarşı əmələ gələn təbii immunitet bu infeksiyaya qarşı ən müasir peyvəndlərin belə əmələ gətirdiyi immunitetdən dəfələrlə güclü olur:* "Çünki təbii xəstələnmə fonunda orqanizm virusun hansısa bir fraqmentinə qarşı deyil, canlı virusun bütün subvahidinə qarşı, hüceyrə yaddaşına total şəkildə həkk olunan, aktiv immunitet formalaşdırır. Odur ki, mutant ştammından asılı olmayaraq, bütün təkrari yoluxma halında insan bu infeksiyaları çox yüngül, yəni fəsli infeksiya kimi keçirir. Hazırkı pandemiya şəraitində "COVİD-19" əleyhinə peyvəndlərin vurulması mütləq şəkildə lazımdır. Lakin bu infeksiyanın istənilən klinik formasını keçirib-sağalmış şəxslərə qoruyucu antitellərin pozitiv titri zamanı peyvənd vurulması məsləhət deyil. "COVİD-19"-u xüsusən ağır keçirmiş şəxslərə, qoruyucu antitellərin titri neqativ göstəriciyə düşənə qədər, vaksin vurulması əks-göstərişdir. Çünki güclü immun aktivliyin vaksinlə təkrari stimulyasiyası, limfositlərin mütləq fəallığı ilə müşahidə olunan, immun hiperaktivliyə səbəb ola bilər. Bu da farmakoloji korreksiyası praktik olaraq mümkün olmayan və letal sonluğa səbəb ola biləcək poliorqan (ağ ciyər, böyrək və s.) patologiyası ilə müşahidə oluna bilər. Məhz bu səbəbdən, "COVİD-19"-a yoluxaraq qeydiyyata düşən şəxslərə "immunitet sertifikatı" verilir və onların peyvənd vurulması 6 ay təxirə salınır. Bu, tamamilə düzgün yanaşmadır".

### "Pandemiya ilə mübarizənin strategiya və taktikası lap ilk gündən düzgün qurulmalı idi"

**M.Qəniyev əlavə edib ki, bu infeksiyanı simptomsuz, zəif klinik əlamətlərlə və ya klinik formasından asılı olmayaraq, evində keçirib, qeydiyyata düşməyən xəstələrin sayı, "COVİD-19"-a yoluxaraq qeydiyyata düşən xəstələrin sayından qat-qat artıqdır:** "Hazırkı şəraitdə vaksinasiya qeyri-rəsmi olsa da, məcburidir. Belə olan halda, xəstəlikdən sağalan, lakin qeydiyyata düşməyən şəxslərin məlum zaman müddəti gözlənilmədən, peyvənd olunacağı təqdirdə, onların arasında kəskin klinik əlamət və qeyri-spesifik effektlərin meydana çıxması ehtimalı istisna olunmur. Odur ki, bunu vaksinin ayağına yazıb, peyvəndə qarşı insanlarda inamsızlıq, qorxu və ruhi sarsıntı yaratmaq olmaz. Əksinə, buna məsul olan şəxslər, xalqa bu incəlikləri izah etməli və onları maarifləndirməlidir. Yəni "COVİD-19"-la mübarizənin strategiya və taktikası lap ilk gündən düzgün qurulmalı idi. Belə olan halda, biz nə etməliyik? Peyvəndləmə mütləq şəkildə könüllülük prinsipi əsasında aparılmalıdır. Təbii ki, heç kim ölmək istəmir. İnsanlara bütün reallıqlar izah olunub, onlar düzgün təlimatlandırılsa, bu istiqamətdə mövcud bütün problemlər aradan qalxacaq. "COVİD-19"-a qarşı qoruyucu İgG antitellərinin titrinin pozitivliyi təsdiq olunmuş istənilən vətəndaşımız bu infeksiyaya yoluxub-sağalmış şəxs kimi qeydiyyata alınmalı, onların ad və soyadı portala salınmaqla, həmin şəxslərə immunitet pasportu və vaksinasiyadan məlum möhlət hüququ verilməlidir. Mən əminəm ki, söylədiyim son iki maddəyə əməl olunarsa, biz bir də heç bir vaxt, peyvənddən sonra kimsənin ağır vəziyyətə düşməsi haqqında xəbər eşitməyəcəyik".

# Sənədsiz evlərin taleyi sual altındadır

## Bakı və Abşerondakı tikililərin 30 faizi müvafiq imtiyazdan kənarda qalacaq

**Sənədsiz evlər sənədsiz də qalmaqdadır. Bu məsələ heç cür həllini tapmır. Bir ara bu məsələdə canlanma yarandı, sənədləşmə işlərinə başlandı, qeydiyyat aparıldı, lakin pandemiya yenə işi yarımçıq qoydu. Problem təkcə pandemiyadırmı, yoxsa sənəsiz evlərin qarşısında başqa baryerlər də var, öz hasarları xaric? Əmlak eksperti Elnur Fərzəliyev hesab edir ki, sənədsiz evlərin əmlak çıxarışları ilə təmin edilməsi qərarı verilsə, Bakı və Abşerondakı tikililərin 30 faizi müvafiq imtiyazdan kənarda qalacaq. Ekspert bildirib ki, sənədsiz evlər problemi artıq uzun illərdir davam edir və qeyri-rəsmi rəqəmlərə görə, Bakı və Abşeron ərazisində 500 minə yaxın çıxarışsız fərdi həyət evi var:**

"Bu evlərə çıxarış verilməsi üçün ilk növbədə torpağın təyinatı dəyişməlidir. Artıq insanlarda bu barədə qorxu var. Çünki inamla yanaşırdılar ki, bu evlər sənədləşəcək. Amma nəinki 30 il, hətta daha əvvələ aid tikililərə belə sənəd verilməyib. Məsələn, Bakının Yasamal rayonunda "Alatava", "Papanin", "Köhnə Sovetski" ərazilərində çıxarış yoxdur. Buradakı evlərin yaşı bəlkə də 80-100 ilə bərabərdir. Buna baxmayaraq, çıxarış verilmir. Lakin qanunvericilikdə belə bir müddəa var ki, əgər bir vətəndaş bir mənzildə 30 il yaşayırsa, 30 il ərzində həmin mənzilə iddiaçı çıxmayıbsa və orada yaşamasını sübut edən amillər varsa, vətəndaş bu minvalla həmin evə çıxarış ala bilər". Ekspert çıxarışların verilməsinin üstünlüklərindən də danışıb. Bildirib ki, bu həm vətəndaşın, həm də dövlətin xeyrinə olacaq: "Çıxarışlı mənzillərin alqı-satqısı zamanı hər kvadratmetrə görə dövlətə vergi ödənilir. Amma bu gün ən çox əmlak satışı çıxarışsız həyət evləri üzərindən aparılır. Çünki burada qiymətlər çıxarışlı mənzillərlə müqayisədə çox aşağıdır. Həmçinin, yeni binalara da çıxarışlar uzun illərdən sonra verilir. Həmin vaxt ərzində isə bu mənzillər demək olar ki, 4-5 dəfə alınıb-satılır. Lakin çıxarışın olmaması səbəbindən dövlət bu alqı-satqıdan da yararlana bilmir. Əgər sənədlər vaxtında verilsə və digər həyət evləri də sənədləşdirilsə, dövlət büdcəsinə kifayət qədər böyük vəsait daxil ola bilər". E.Fərzəliyev onu da qeyd edib ki, çıxarışlar verilsə belə, bir çox vətəndaş bu imtiyazdan məhrum olacaq: "Sənədsiz evlərlə bağlı amnistiya olsa, bu tikililərin təxminən 70 faizdən çoxu çıxarışla təmin oluna bilər. Yerdə qalan 30 faizinə isə düşünürəm ki, çıxarış vermək mümkün olmayacaq. Çünki həmin evlər çox təhlükəli yerlərdə, yüksəkgərginlikli elektrik xətlərinin altında tikilib. Ümumilikdə çıxarışların verilməsi həm vətəndaş, həm də büdcə üçün faydalı olar. Eyni zamanda, bəzi ölkələrdən, xüsusən də ərəb ölkələrindən olan vətəndaşlar Azərbaycanda daşınmaz əmlak almaq istəyirlər və ya xarici ölkə vətəndaşı olan azərbaycanlılar burada əmlaka yatırım etmək istəyirlər, amma çıxarış olmadığından bunu edə bilmirlər. Yəni sənədlərin olmaması ölkəyə gələ biləcək valyuta axınının da qarşısını almış olur. Ümid edirik ki, problem ən qısa zamanda həllini tapacaq".



**Əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı isə "Şərq"ə açıqlamasında qeyd etdi ki, sənədsiz evlər probleminin həllini tapmaması hüquqi və ya inzibati məsələ deyil:**

- Bu, texniki məsələdir. Pandemiyadan əvvəl təqribən 200 min ev inventarlaşdırıldı. Lakin sonra Əmlak Məsələləri üzrə Dövlət Komitəsi ləğv edilərək İqtisadi İnkişaf Nazirliyinin tabeliyinə verildi. İqtisadi İnkişaf Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə çevrildi. Struktur dəyişikliyi aparıldı, Əsasnamə təsdiq edildi. Xidməti işə başlamaq istəyəndə pandemiya da başladı. Məlumdur ki, pandemiyada bir çox dövlət strukturları, idarə və müəssisələr fasiləli iş rejiminə keçdi, sərt karantin müddətində ümumiyyətlə canlı təmaslar, vətəndaş qəbulları dayandırıldı, onlayn xidmətə keçildi. Ona görə də proses ləngidi. Amma hesab edirəm ki, qarşıdakı aylarda prosesdə yenidən aktivləşmə başlayacaq.

**R.Osmanlı sənəd verilməyəcək evlərlə bağlı da danışdı:**

- Paytaxt üzrə 165 min, regionlar üzrə isə 70 min sənədsiz evin olduğu məlumdur. Hansı evlərə çıxarış verilməsində problem ola bilər, qərarda istisna hal kimi açıq qeyd edilir; mühafizə zolaqlarında, kommunikasiya xətlərinin üzərində - dəmir yolu, magistral yollar, qaz xətti keçən yollar, Bakı-Tbilisi-Ceyhan və buna bənzər kəmərlər, aktiv mədən əraziləri, hansı ki orda istismar davam edir və vulkanik ərazilər. Belə ərazilərdə yerləşən evlərin sənədləşməsi çətin olacaq. Bəlkə heç mümkün də olmayacaq. Amma bu cür evlər ümumilikdə sənədsiz evlərin 10 faizini təşkil edə, ya etməyədir.

**Məlahət Rzayeva**

# "Belə qəmli dayanma"

## Flora Kərimova nəğmənin qəmli tarixçəsini danışdı

Samirə Ərəblinski

**Bəzi mahnılar var ki, onları dinləyəndə səninlə dərdləşdiyini, əzizlədiyini düşünürsən. Hələ də onu sevilən sənətkarların səsindən eşidəndə könlündə çiçəklər açır, qəmgin olsan da, ağlasan da, gözünün yaşını silib yaşamaq istəyirsən. Elə mahnının özü kimi sonsuzadək yaşamaq!**

"Belə qəmli dayanma" da həmin əsərlərdən biridir.

Bu günə qədər bir çox sənətkarımızın ifasında eşitmişik. İlk dəfə Xalq artisti Flora Kərimova oxuyub. Mahnının sözləri Şamxal Rüstəmə, musiqisi Taleh Hacıyeva məxsusdur. Qeyd edək ki, T.Hacıyev Şərqdə ilk opera yazan qadın bəstəkar Şəfiqə Axundovanın oğludur.

Mahnını F.Kərimovadan sonra Məmmədbağır Bağırzadə, Məhəbbət Kazımov, Könül Kərimova, Sahib İbrahimov, İlkin Əhmədov, Nazpəri Dostəliyeva, Mirələm Mirələmov kimi sənətkarlar da səsləndirib. Konsertlərinin birində Röya Ayxan da "Belə qəmli dayanma"ya müraciət edib.

Hərəsi öz üslubunda, öz tərzində oxuyub, seçimi dinləyicinin öhdəsinə buraxıblar.

Biz də "Belə qəmli dayanma" mahnısının tarixçəsinə nəzər saldıq.




**Əsərin ilk ifaçısı F.Kərimova "Şərq"ə mahnı haqda bunları söyləyib:**

"Şəfiqə xanımın oğlu Talehin mahnısıdır. Necə ərsəyə gəldiyini bilmirəm. Amma Taleh yazdı, mənə zəng elədi, razılaşdım, oxudum. Çox istedadlı gənc idi. Səhhətində problemlər var idi. Lakin bunlar onun istedadına mane olmurdu. Özü də pianoçu idi, anasının bütün əsərlərini ifa edirdi. Mahnıları bəzəyirdi. Digər bəstkarlar da mahnılarını ona verirdilər, istəyirdilər o müşayiət etsin. Talehin həyatı nakam oldu. Xəstə idi, dünyasını dəyişdi. Rəhmətə gedəndə anası bilmədi, xalası ondan gizlətdi. Çünki o zaman Şəfiqə xanım da xəstə idi. Biz onun yas mərasimində yığılanda Şəfiqə xanım soruşurdu ki, xeyir ola, hamınız birdən gəlirsiniz? Niyə getdiyimizi bilmirdi. Biz də söyləyirdik ki, sözləşib gəlmişik. Allah rəhmət eləsin".

M.Bağırzadənin oğlu Rahim Bağırzadə 2006-cı ildə Ş.Axundovanın atasının anım günündə çıxış etdiyini deyib. Onun sözlərinə görə, görkəmli bəstəkar M.Bağırzadənin oğlu Talehin mahnısını oxuduğunu və onun ifasını çox bəyəndiyini xüsusi vurğulayıb:

"Atam o mahnını 1981-ci ildə "Dan ulduzu" ansamblı ilə oxuyub. Mahnının ikinci ifaçısıdır. Mən rəhmətlik T.Hacıyevi də görmüşəm. 1997-1998-ci illərdə atam ona başqa mahnı yazdırırdı. Yanına getdik, piano ilə ifa etdi, dinlətdi. Sonra özü xəstələndi, vəziyyəti ağırlaşdı, uzun müddət xəstəliyi ilə əlaqəli əziyyət çəkdi. Mahnı qaldı. Qeyd edim ki, Flora xanımdan sonra o mahnını cürət edib oxumaq çətin məsələ idi. M.Bağırzadə həmin dövrdə çox populyar olub. Bu mahnı 90-cı illərə qədər ifa olunmurdu. Atam dünyasını dəyişəndən sonra yenidən dəbə düşdü, radiolarda səsləndi. Sanki bir daha yarandı, sosial şəbəkələrdə yayıldı. Mahnı üçüncü dəfə həyata gəldi. Çox sevilən əsərdir. "Şur" muğamının üzərindədir. Hər müğənni ifa edə bilmir, çətin, məsuliyyətli mahnıdır. Gərək sözlərini yaşayasan, diksiyan, bədii qiraətin də düzgün olmalıdır. Obraz yaradıb, musiqi ilə sözü vəhdətdə işlədə bilməlisən. Oğlu kimi deyil, bir dinləyici kimi söyləyirəm. Həmişəyaşar mahnıdır. Bu gün nə muğam ifaçıları, nə də xanəndələr həmin mahnını oxuya bilirlər. Bəzən müğənnilər mahnıları 2-3 saata studiyada yazıb, hazırlayırlar. Mənə qəribə gəlir, qəbul edə bilmirəm. Atam bir mahnını günlərlə, saatlarla oxuyurdu, bəyənmirdi, sözü, vurğusu düz deyil, deyib, yenidən ifa edirdi. Hamısı gözəl oxuyub, lakin mənim aləmimdə atam ən yaxşısıdır. Şəfiqə xanım kimi sənətkar, dahi Üzeyir Hacıbəyovun tələbəsi Məmmədbağırın ifasını bəyənirdi. Tədbirdə də qeyd etdi. Flora xanım da, digər sənətkarlar da orada idi. F.Kərimova simfonik orkestra ilə oxuyub, atam isə "Dan ulduzu" ansamblı ilə. Bu mahnı milli alətlərlə alınmır. Nə klarnetlə, nə qarmonla, nə də tarla çala bilməzsən, səslənmə yaxşı çıxmır. Atam Flora xanımın ifasını çox bəyənirdi. Məhəbbət Kazımovun ifasını da həmçinin. İlkinin oxumağı xoşuma gəlir. Fəxr edirəm ki, atamın repertuarına müraciət edib. Arzu edirəm ki, bundan sonra bütün müğənnilər oxusun, bu mahnılar yaşasın. Onlar Azərbaycanın sərvətidir. Bir daha təkrar yazılmayacaq".

# "Nar" ADAMUN Gənclər Forumunun keçirilməsinə dəstək oldu



**Gənclərin bilik və bacarıqlarının artırılmasına xüsusi önəm verən "Nar" ADA BMT Modeli Klubunun (ADAMUN) təşkilatçılığı ilə keçirilən Gənclər Forumuna dəstək oldu.**

Forumun məqsədi gənclərin üzləşdikləri problemlərin mütəxəssislər tərəfindən işıqlandırılması, gənclərlə birlikdə müzakirə və təhlilinin həyata keçirilməsi, eləcə də gənclərin bu problemləri həll etməyə yönəlmiş təkliflərinin irəli sürülməsində birbaşa iştirakının təmin olunmasıdır.

Qeyd edək ki, 3 gün davam edən forumda gənclər komandalara bölünərək, müxtəlif layihə ideyaları üzərində araşdırma və müzakirə apardı, layihə təkliflərini hazırladı və təqdimatını etdilər. Təqdimatların sonunda ən yüksək nəticə göstərmiş 3 layihə və müəllif komandalar mükafatlandırıldı.

*Qeyd edək ki, ADA BMT Modeli klubu (ADAMUN) 2012-ci ildən fəaliyyət göstərir və ölkə daxilində minlərlə gəncin inkişafına töhfə verib.*

Vəli Səmədli, Sultan Quliyev, Əmir Şahbuzlu, Piriş Qaraoğlu, Aydın Xanəliyev Ordubad rayonunun Tipi kəndində yaşayan Cəfərovlar ailəsinə

**Bəhruz Cəfərovun**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

---

Vəli Səmədli, Sultan Quliyev, Əmir Şahbuzlu, Piriş Qaraoğlu, Aydın Xanəliyev Ordubad rayonunun Tipi kəndində yaşayan Sultanovlar ailəsinə

**Fatmanisə xanımın**

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

---

"Cəmiyyət" Media Qrupun kollektivi adından həmkarımız Almaz Səfərliyə xalası oğlu

**Nizami Nəcəfovun**

vaxtsız vəfatı ilə əlaqədar başsağlığı veririk.

**Allah rəhmət eləsin!**

# Bakcell Azərbaycanın ən sürətli mobil şəbəkəsi elan olundu

Mobil və genişzolaqlı şəbəkələrin intellektual təhlili, mobil tətbiqetmələrin və texnologiyaların sınaqdan keçirilməsi üzrə dünya lideri olan Ookla® ən yüksək mobil şəbəkə sürətini müəyyən etmək üçün özünün Speedtest mobil tətbiqetməsi vasitəsilə Azərbaycanın bütün mobil operatorlarının şəbəkələrini test edib. 68 mindən çox istifadəçinin iştirak etdiyi testin nəticəsinə görə bu ilin birinci və ikinci rübü ərzində Bakcell ən yaxşı nəticələri göstərib. "Bakcell"in mobil şəbəkəsi ən yüksək yükləmə (download) və ötürmə (upload) sürəti nümayiş etdirib.




"Biz bu mükafata layiq görüldüyümüz üçün qürur duyuruq. Bu, abunəçilərimizi ən üstün mobil şəbəkə və ən yüksək keyfiyyətli müştəri təcrübəsi ilə təmin etmək üçün göstərdiyimiz səylərə müstəqil təşkilatdan verilən yüksək qiymətdir. Abunəçilərin mobil şəbəkəyə daha çox ehtiyac duyduğu çətin pandemiya dövründə bu mükafatın əhəmiyyəti daha da artır. Bu müddət ərzində biz Bakcell abunəçilərinə kommunikasiya, iş və əyləncə üçün daha geniş imkanlar açmaq üçün əlimizdən gələni etdik. Fəaliyyətimizin uğurlu nəticəsi olan bu mükafat bizə abunəçilərimizin mobil rabitə xidmətlərinə olan tələblərini tam həcmdə ödəmək naminə daha çox işləmək üçün əlavə motivasiya verir", deyə Bakcell şirkətinin baş icraçı direktoru Rainer Rathgeber bildirib.

Qeyd edək ki, 2018-2019-cu illərdə Ookla şirkəti Bakcell şəbəkəsini 3 dəfə ardıcıl olaraq "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" adına layiq görüb. Bu gün Bakcell şəbəkəsi 8700-dən çox baza stansiya sayəsində Azərbaycan əhalisinin 99.9%-ni, ölkə ərazisinin isə 91.7%-ni əhatə edir.

"Ookla tərəfindən təqdim olunan "Speedtest mükafatı" yalnız bazarda ən üstün internet göstəriciləri və əhatə dairəsinə malik olan mobil operatorlara verilir. Biz "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" mükafatını Bakcell şirkətinə böyük məmnuniyyətlə təqdim edirik. Bu mükafat şirkətin 2021-ci ilin I və II rübləri ərzində göstərdiyi müstəsna nəticələrin təsdiqidir. Bu yüksək nəticələr abunəçilər tərəfindən Speedtest proqramı vasitəsilə edilən sınaqların ciddi şəkildə təhlili nəticəsində əldə olunub", deyə Ookla şirkətinin baş icraçı direktoru Doug Suttles bildirib.


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**


### TƏKRAR HƏRRACIN KEÇİRİLMƏSİNƏ DAİR ELAN

Balakən rayon İcra Şöbəsinin 24.08.2021-ci il tarixli, 360/14 saylı sifarişi ilə, (1 ədəd) istifadəyə yararlı etiketvuran aparata dair 13 sentyabr 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş təkrar hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin aparat satış qiyməti olan 2250 (iki min iki yüz əlli) manatdan 20% aşağı, yəni 1800 (bir min səkkiz yüz) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 24 sentyabr 2021-ci il, 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 10%-i, yəni 180 (bir yüz səksən) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

*(Əlavə olaraq "Qeyd"ə bax).*

**QEYD:** Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) iş günü qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır. 1) Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq); 2) Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd; 3) Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

4) Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti;

**Hərracın təşkilatçısı "Əmlak Hərrac Mərkəzi" MMC**

*Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.*

*Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56 e-mail: info@e-herrac.com*

*rəsmi internet saytı: e-herrac.com*

### TƏKRAR HƏRRACIN KEÇİRİLMƏSİNƏ DAİR ELAN

Bakı şəhəri Nərimanov rayon İcra Şöbəsinin 02.08.2021-ci il tarixli, 160847/2021-16-22/6157 saylı sifarişi ilə, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsi tərəfindən siyahıya alınmış qoşa çarpayı (8 ədəd); tək çarpayı (2 ədəd); TV "LG" (2 ədəd); TV "Samsung" (5 ədəd); balaca soyuducu "Rokos" (17 ədəd); paltar üçün şkaf (17 ədəd); sadə kreslo (30 ədəd) və (1 ədəd) sex yığımı reception masasına dair 13 sentyabr 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş (II) təkrar hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin avadanlıqlar satış qiyməti olan, 3.513,6 (üç min beş yüz on üç altmış qəpik) manatdan 30% aşağı, yəni 2.460 (iki min dörd yüz altmış) manata olmaqla təkrar (sonuncu) açıq hərraca çıxarılmışdır.

Təkrar (sonuncu) hərrac 24 sentyabr 2021-ci il, 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 10%-i, yəni 246 (iki yüz qırx altı) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

*(Əlavə olaraq "Qeyd"ə bax).*

---

Xaçmaz rayon İcra Şöbəsinin 16.08.2021-ci il tarixli (daxil olma 16.08.2021), 533/2021 saylı sifarişi ilə, Bakı şəhəri, Yasamal rayonu, A.M.Şərifzadə küçəsi, 571-ci məhəllədə yerləşən qeyri yaşayış sahəsi; Bakı şəhəri, Səbail rayonu, Badamdar qəsəbəsi, 3-cü yaşayış massivində yerləşən 0.0553 ha torpaq sahəsi və Xaçmaz rayonu, Şollar kəndində yerləşən fərdi yaşayış evinə dair 13 sentyabr 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş (II) təkrar hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin əmlaklar satış qiyməti olan, qeyri yaşayış sahəsi üzrə 702.000 (yeddi yüz iki min); 0.0553 ha torpaq sahəsi üzrə 54.000 (əlli dörd min); fərdi yaşayış evi üzrə 14.400 manatdan 30% aşağı, yəni qeyri yaşayış sahəsi üzrə 491.400 (dörd yüz doxsan bir min dörd yüz) manata; 0.0553 ha torpaq sahəsi üzrə 37.800 (otuz yeddi min səkkiz yüz) manata; fərdi yaşayış evi üzrə 10.080 (on min səksən) manata olmaqla təkrar (sonuncu) açıq hərraca çıxarılmışdır.

Təkrar (sonuncu) hərrac 24 sentyabr 2021-ci il, 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni qeyri yaşayış sahəsi - 24.750 manat; 0.0553 ha torpaq sahəsi - 1.890 manat; fərdi yaşayış evi - 504 manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

*(Əlavə olaraq "Qeyd"ə bax).*

---

Bakı şəhəri Nərimanov rayon İcra Şöbəsinin 02.06.2021-ci il tarixli, 7514/152113/20-15-18 saylı sifarişi ilə, "Avesta Konserni" MMC-nə məxsus Bakı şəhəri, Yasamal rayonu, H.B.Zərdabi pr-ti 74 ünvanında yerləşən 27,68 kv. m. qaraj sahəsinə dair 13 sentyabr 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş (II) təkrar hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin qaraj sahəsi satış qiyməti olan, 19.929,6 (on doqquz min doqquz yüz iyirmi doqquz manat altmış qəpik) manatdan 30% aşağı, yəni 13.951 (on üç min doqquz yüz əlli bir) manata olmaqla təkrar (sonuncu) açıq hərraca çıxarılmışdır.

Təkrar (sonuncu) hərrac 24 sentyabr 2021-ci il, 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni 697,55 (altı yüz doxsan yeddi manat əlli beş qəpik) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

*(Əlavə olaraq "Qeyd"ə bax).*

---

**QEYD:** Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) iş günü qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır. 1) Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq); 2) Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd; 3) Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

4) Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti;

**Hərracın təşkilatçısı "Əmlak Hərrac Mərkəzi" MMC**

*Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.*

*Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56 e-mail: info@e-herrac.com*

*rəsmi internet saytı: e-herrac.com*


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı, Samirə Ərəblinski

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1674



## Test nəticələri müsbət çıxıb

### Zooparkda 13 qorilla koronavirusa yoluxub

**ABŞ-ın Corciya əyalətində yerləşən "Atlanta" zooparkında 13 qorilanın koronavirusa yoluxduğu bildirilib.**

"Şərq" "Ntv.com"a istinadən xəbər verir ki, qorillaların COVİD-19 testi müsbət çıxıb.

Xəstəliyə yoluxan qorillalar arasında ən yaşlısı "Ozzie" adlı erkək qorilladır. Heyvanın 60 yaşında olduğu bildirilib. Zooparkın səlahiyyətliləri qorillaların öskürdüyünü, burunlarının axdığını və iştahlarının azaldığını qeyd edib.

İşçilərin tam peyvənd edildiklərini və qoruyucu vasitələr taxdıqlarını ifadə edən səlahiyyətlilər, heç bir simptom göstərməyən bir işçinin virusu qorillalara ötürdüyünü düşünürlər.

**Yeganə**

## Tarixə düşdülər

### Evli cütlüklər eyni matçda vəzifə aldılar





**Türkiyənin futbol tarixində bir ilk yaşanıb. "Şərq" Türkiyə mətbuatına istinadən xəbər verir ki, türk futbol tarixində ilk dəfə evli cütlüklər eyni matçda hakim olublar.**

TFF 1-ci Liqanın 4-cü həftəsində MKE "Ankaragücü" ilə "Gənclərbirliyi" arasında oynanılan paytaxt derbisində 3 ay əvvəl evlənmiş cütlüklər - Gamze Durmuş və Burak Akkan oyuna birlikdə hakimlik ediblər. Əvvəlcə, Burak Pakkan MKE "Ankaragücü"-"Gənclərbirliyi" matçında hakim olub, daha sonra eyni matçın dördüncü hakimi isə onun həyat yoldaşı Gamze Durmuş olub. Bununla da onlar tarixdə bir matçı birlikdə idarə edən ilk evli cütlüklər olub. Qeyd edək ki, Ankara Eryaman Stadionunda keçirilmiş oyunda "Ankaragücü" "Gençlerbirliyi"ni 2-0 hesabı ilə məğlub edib.

**Aynurə**



# Maska Türkiyədən rəqib...

## 1989-cu ilin avtomobilini sürücüsüz taksi halına gətirdilər

**Aynurə Pənahqızı**






**Ötən gün dünyanın ən böyük aviasiya, kosmos və texnologiya festivalı TEKNOFEST çərçivəsində təşkil edilən "Robotaksi"-Sərnişin Avtomobil Yarışması Bilişim Vadisində başlayıb. Yarışa Bülent Ecevit Universitetindən qatılan Karaelmas komandası digər komandalardan xüsusilə fərqlənib. Belə ki, onlar 1989-cu il Serçe model avtomobilinin bütün vasitələrini zibilliklərdən yığaraq, onu sürücüsüz idarə edilən müasir avtomobil halına gətiriblər.**

Bununla da, onlar sürücüsüz nəqliyyat vasitələri ilə tez-tez gündəmdə olan Elon Maska rəqib olublar. Karaelmas komandası "Sparrow" model avtomobilini 8 ay ərzində ərsəyə gətirdiklərini vurğulayıblar. Komanda kapitanı Berat Cansız açıqlamasında bildirib ki, komandasıyla birlikdə 1989-cu ilin klassik avtomobilini 2021-ci ildə sürücüsüz idarə edilən müasir avtomobil halına gətiriblər. O qeyd edib ki, avtomobili hazırlamaq onlar üçün təxminən 15 min TL-yə başa gəlib: "Bu avtomobil bütün robotaksi tapşırığını yerinə yetirir. Komandamız 3 ildir ki, bu tipli yarışmalara qatılır. Son 2 ildə yarışmalarda finala gələ bildik. Keçən il Türkiyədə isə üçüncü olmuşduq. Yenə ilk 3-lükdə yer almağı hədəfləyirik. Daha əvvəl internetdə bir sıra yarışlarda 1989-cu ilin dəyişdirilmiş avtomobilini görmüşdük. Özümüzə "Niyə biz də bu yarışlarda iştirak etməyək?" deyə soruşduq və bununla da yarışmalara qatılmaq qərarına gəldik. Yarışmanın adı "Robotaksi" olduğu üçün onun dizaynını da bu konsepsiyaya uyğunlaşdırdıq. Zibillikdən tapdığımız tünd mavi rəngli vasitəni 3 min TL-yə aldıq. Sonra sənayedə onun üzərində bir sıra dəyişikliklər etdik. Vasitəni "Robotaksi"yə uyğun etmək üçün sarı rəngə boyadıq. Bundan sonra nəqliyyat vasitəmizə elektron sistemi quraşdırdıq. Öz dizaynımıza malik elektron kartımız da var. Tamamilə orijinal bir şəkildə onu yenilədik. Həmçinin, proqramçı dostlarımız maşının üzərində bəzi testlər və araşdırmalar apardı və maşına öz yeni proqramlarını yüklədi. Yəni bunların hamısı tamamilə orijinal bir şəkildə edilib. 1989-cu il modelinin tamamilə sürücüsüz gedə biləcəyinə əminik. Çünki biz bu vasitə üzərində aylardı işləyirik. Nəqliyyat vasitəsindəki bütün mühərrikləri və transmissiyanı tamamilə sökdük. Çünki bu, elektrik proyekti olacaqdı. Avtomobildə daxili yanma mühərrikindən istifadə etməyəcəyimiz üçün onun ağırlıq çəkməsini istəmədik, ona görə də bütün sistemləri tamamilə sökdük. Vasitədəki hazır sükan qutusuna isə bir elektrik mühərriki bağladıq. Bunu müəyyən mərhələlərdə ölçərək elektron fırlanma mexanizmi yaratdıq, sonra arxa tərəfində 13 düymlük təkərlərimizin içini oyduq və orada elektrik qovşağı mühərriklərini qaynaqladıq. Bunun çevrilməsi, qaynaqlanması və sınaqdan keçirilməsi təxminən 3 həftə çəkdi. Bununla da bir komanda olaraq, 1989-cu ilin klassik avtomobilinin 2021-ci ildə böyük səylə avtonom və sürücüsüz idarə olunmasını təmin etdik".

*Qeyd edək ki, müsabiqədə qalib gələn komandaya 75 min TL pul mükafatı veriləcək.*

**Aynurə Pənahqızı**



# Yeni kiberdələduzların hücumu başlayıb

## Bir çox proqram təminatı vasitəsilə istənilən şəxsə istənilən nömrədən zəng etmək mümkündür

**Son günlər ölkəmizdə kiberdələduzluq hallarının çoxaldığı, yeni formada kiber təhdidlərin artdığı müşahidə edilir. Kiberdələduzlar videozənglər vasitəsilə tanınmışları şantaj edir, bank kartlarının məlumatlarını müxtəlif üsullara ələ keçirirlər. Hətta vətəndaşın tanıya biləcəyi nömrələrdən zəng etmək imkanı verən müxtəlif proqram təminatlarından istifadə edilərək, şəxsi məlumatlar asan formada ələ keçirilir.**

*Texno-bloger Fərid Pərdəşünas "Şərq"ə açıqlamasında bildirib ki, Azərbaycanda kiberdələduzlar tərəfindən "Man in the middle" və "Spoofing Caller ID" hücumu başlayıb. O vurğulayıb ki, əslində bir çox proqram təminatı vasitəsilə istənilən şəxsə istənilən nömrədən zəng etmək mümkündür:* "İndi daha çox məşhur "Spoofing Caller ID" hücumları yayılmaqdadır. Yəni istədiyiniz adamın nömrəsi ilə başqasına zəng edə bilirsiniz. Məsələn, sizə atanızdan zəng gəlir, ekranda ata çıxır, amma danışan başqa adam olur. Yaxud sizə polisdən, bankdan zəng gəlir, amma arxada danışan cinayətkardır. Bu metodla insanlar aldadılır və məlumatları ələ keçirilir. İşin pis tərəfi bu əlavə ilə səsi dəyişməyin mümkün olmasıdır. Artıq bu metodla Azərbaycanda da hücumlar var. Dövlət tərəfindən həmin əlavəyə çıxışlar bağlanıb. Lakin VPN ilə hücumlar olur. Çünki proqram təminatı qlobal işləyir və bu, yerli operatorların problemi deyil. Yəni bu, telekommunikasiya sektorunda bilinən qlobal problemdir. Vəziyyətdən çıxış yolu yalnız telefonda səsli şəkildə heç kimə məlumat verməməkdir".



Osman Gündüz: "Vətəndaşların məlumatlandırılmasına ciddi ehtiyac var, ölkədə rəqəmsal savadsızlıqla bağlı ciddi problemlər qalmaqdadır"

**Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz "Şərq"ə açıqlamasında bildirib ki, baş verənlərlə bağlı vətəndaşlara qabaqlayıcı mesajların verilməsinə, kibertəhlükəsizliklə bağlı profilaktiki tədbirlərin görülməsinə, kiberdələduzluq halı baş verdikdən sonra atılacaq addımlar haqqında vətəndaşların məlumatlandırılmasına ciddi ehtiyac var:** "Ümumiyyətlə, ölkədə rəqəmsal savadlılıqla bağlı ciddi problemlər qalmaqdadır. Qeyri-dövlət sektorunda əsas səlahiyyətli qurum Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidmətidir. Son günlərdəki kiberdələduzluqlarla bağlı bu qurum tərəfindən hansı tövsiyələrin verilməsi ilə maraqlandım. Rəsmi saytlarına daxil olduqda gördüm ki, bu tip axırıncı xəbərdarlıq-tövsiyə məlumatı 5 ay öncə yerləşdirilib. Bildiyim qədər yarıtmaz fəaliyyətinə görə Elektron Təhlükəsizlik Xidmətinin rəhbəri Faiq Fərmanov da bir müddət öncə vəzifəsindən azad edilib. Ümid edirəm ki, NRYTN-in yeni rəhbərliyi son baş verənlərlə bağlı bu istiqamətdə işləri daha da canlandıracaq. Görünən odur ki, həm dövlət, həm də qeyri-dövlət sektorunda kibertəhlükəsizliklə bağlı məsələlərə cavabdeh olan Xüsusi Rabitə və İnformasiya təhlükəsizliyi Dövlət Xidməti və Elektron Təhlükəsizlik Xidməti tərəfindən profilaktika, maarifləndirmə, metodiki-informasiya dəstəyi çərçivəsində işlər gücləndirilməlidir. Hökumət bütövlükdə əhalinin rəqəmsal savadlılığının artırılması istiqamətində kompleks tədbirlər müəyyən etməlidir. Həmçinin, rəqəmsal transformasiya ilə bağlı konseptual sənədlərin qəbulu sürətləndirilməlidir".

## Bir gecəsi 200 dollardır

### Bu otel kartofa bənzəsə də çox sevimli məkandır





**"Big İdaho Potato Hotel" görənləri heyrətə gətirir. Otel uzaqdan boş bir sahədə nəhəng bir kartofa bənzəsə də, əslində sevimli bir məkandır.**

"Şərq" "Haberler.com"a istinadən bildirir ki, Kristie Volf adlı şəxs tərəfindən dizayn edilən məkan fərqli otel axtarışında olanlar üçün bənzərsiz bir fürsətdir.

Otelə girdikdən sonra tərəvəzin içini hiss edə biləcəyiniz şirin bir qonaq otağına rast gəlirsiniz. Məkanın içi sakitliyi və əyləncəni birləşdirir, eyni zamanda kifayət qədər maraqlı aksesurlarla doludur. Oteldə gecə qalma haqqı 200 dollardır.

**Yeganə**

## Koronavirusun yeni simptomları aşkarlandı

### Dəri tökülür, ağız və ya dildə dəyişiklik baş verir



**Son vaxtlar müxtəlif mutasiyalarla gündəmdə olan koronavirusun yeni simptomları meydana çıxıb.**

Bu barədə "Şərq" "Haberglobal"a istinadən xəbər verir. Bildirilir ki, alimlər vaksin olunanlara xəbərdarlıq edib və xəstəliyin yeni əlamətlərini açıqlayıblar. Yüksək hərarət, titrəmə, davamlı öskürək, iybilmə, dadbilmənin itməsi, baş ağrısı, boğaz ağrısı, asqıraq kimi artıq bilinən simptomlarla yanaşı, həddindən çox yorğunluq, dəri tökülməsi, ağız və ya dildə əmələ gələn dəyişikliklər, barmaqların qırmızılaşması, ağrıması, təngnəfəslik, sinə ağrıları, əzələ ağrıları, səsin tutulması, ishal, iştahsızlıq, qarın ağrısı, burun axması da insanın koronavirusa yoluxmasının göstəricisi ola bilər.

Həmçinin "Pfizer" peyvəndinin "Delta" mutasiyasınan qarşı 88 faiz, "Alfa" variantı əleyhinə isə 93.7 faiz effektli olduğu vurğulanıb.

**Kənan**